**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ SEPARATİZMİN SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ

İxtisas: **6114.01 – Sosial psixologiya**

Elm sahəsi: **Psixologiya**

İddiaçı: **İmdad Mustafa oğlu Bayramov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** -

**Rəsmi opponentlər:**

Psixologiya elmləri doktoru, professor
**Ərəstun Təriş oğlu Baxşəliyev**

Psixologiya elmləri doktoru, professor
**Gülnarə Kazim qızı Qurbanova**

Psixologiya elmləri doktoru, professor
**Pavel Petroviç Qornostay**

Psixologiya elmləri doktoru, professor
**Tovvu Natalya Oyunovna**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BED 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor:
**Kamilə Ramiz qızı Əliyeva**

_______________

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru:
**Müşviq Hüseyn oğlu Mustafayev**

_______________

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor:
**Elnarə İbrahim qızı Şəfiyeva**

_______________

Çapa imzalanıb: 21.05.2021

Kağızın formatı: ____________

Həcm: ________

Tiraj: 100

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin son rübündən etibarən qloballaşma prosesi ilə paralel olaraq genişlənən separatçılıq prosesləri Sovet İttifaqının süqutuna və onun ərazisində yaranan yeni müstəqil dövlətlərin bir necəsinin öz ərazi bütövlüyünü qismən itirməsinə səbəb oldu. Lakin, gündən-günə genişlənən separatçılıq hadisələri əslində müasir milli dövlətlərin varlığına böyük təhlükə təşkil etməkdədir. Ona görə də seperatçılığın ən müxtəlif məsələlərinin hərtərəfli tədqiqi müasir milli dövlət olan həm Azərbaycan, həm də digər postsovet respublikaları üçün mühüm həyati əhəmiyyət kəsb edir.

Azərbaycan dövləti ərazisində davam edən Daglıq Qarabağ separatçılığı öz sosial-psixoloji xüsusiyyətlərinə görə etnoseparatçılığın ən radikal və qəddar formasıdır. Buna görə də, erməni separatçılığının sosial-psixoloji baxımdan öyrənilməsi, istər Dağlıq Qarabağ münaqişəsinin həlli, istərsə də regionun sabit, ahəngdar inkişafı ücün, müəyyən tədbirlərin həyata keçirilməsini zəruri edir.

Separatçılığın sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması Azərbaycanda separatçılığın növlərini müəyyənləşdirməyə və onların inkişaf dinamikasını proqnozlaşdırmağa imkan verir. Problemin tədqiqi, Azərbaycanda yaşayan etnik qrupların tarixinin və müasir sosial-psixoloji problemlərinin daha dərindən öyrənilməsi, respublikada milli dövlət quruculuğuna mane olan separatçılıq meyillərinin sosial-psixoloji, sosial-mədəni səbəblərinin müəyyənləşdirilməsi və onların aradan qaldırılması istiqamətində adekvat addımlar atılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan hökumətinin multikulturalizm istiqamətində apardığı dövlət siyasəti ölkədə etnik, dini və digər separatçılıq amillərinin fəallaşmasına şərait yaratmır. Azərbaycanın multikulturalizm siyasəti modeli digər ölkələr üçün də separatçılıq

amillərinin ortadan qaldırılması istiqamətində nümunə ola bilər. Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev deyibdir: "*Biz nəinki ölkə daxilində millətlərarası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya da nümunə göstəririk. Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk*"[1].

Qloballaşma prosesi bütün dünya cəmiyyətlərində müxtəlif sosial problemlərin yaranmasına, həmçinin müəyyən pozitiv perspektivlərin ortaya çıxmasına şərait yaradır. Dünyada baş verən bu proseslərdən kənarda qalmayan Azərbaycan cəmiyyətində də ciddi sosial-mədəni addımlar atılır, ənənəvi sosiomədəni birlik formaları tədricən yeni sosial-mədəni qruplaşmalar, yeni identiklik formaları ilə əvəz olunur. Ənənəvi cəmiyyətlər üçün ağır sosial-psixoloji gərginliklərlə müşayiət olunan bu prosesin sosial-psixoloji baxımdan araşdırılması, bizim cəmiyyətimiz üçün də kifayət qədər aktualdır.

Azərbaycanda son dövrlərdə dini identiklik məsələsinin aktuallaşması bir-biri ilə rəqabət aparan separatçı dini qruplaşmaların fəallaşmasına səbəb olmuşdur. Lakin, ölkədə multikulturalizm istiqamətində dini ayrıseçkiliyə qarşı aparılan dövlət siyasəti dini separatçılıq amillərinin qarşısını alır. Buna görə, ölkədə bəzi separatçı dini qrupların sosial-psixoloji baxımdan tədqiqi, dini separatçılıq meyillərinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Bundan əlavə, problemin araşdırılması cəmiyyətdə separatçılıq meyillərinin ortaya çıxması səbəblərini vaxtında müəyyənləşdirməyə və problemin aradan qalxması üçün müəyyən tədbirlərin həyata keçirilməsinə şərait yaradır.

Müvafiq araşdırma mühüm nəzəri əsaslardan biri kimi dövlətin demokratikləşməsinə, təhlükəsizliyin möhkəmlənməsinə, vətəndaş cəmiyyətinin inkişafına kömək edir. Əslində, hər bir dövlətin ərazisində aktual olan separatçılığın tədqiqi təhlükəsizlik orqanlarına

---

[1] Dövlət Statistika Komitəsi (DSK) www.stat.gov.az

separatçı qruplarla mübarizə strategiyasını müəyyənləşdirməyə və təkmilləşdirməyə şərait yaradır.

Separatçılığın sosial-psixoloji tədqiqi, şəxsiyyətin daha optimal istiqamətdə sosiallaşması imkanlarını gücləndirməyə və cəmiyyətdə sosial-mədəni inteqrasiyaya əngəl olan maneələri aradan qaldırmaq yollarını müəyyənləşdirməyə yardım edir. Dövlətin etnik siyasətinin təkmilləşdirilməsi istqamətində müəyyən tədbirləri həyata keçirmək, ölkə ərazisindəki etnik qrupların etnopsixoloji xüsusiyyətlərini öyrənmək və müasir qloballaşma şəraitində onlarda formalaşan sosial-psixoloji durumun müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

Bu cür elmi araşdırmalar təhsil, təlim-tərbiyə, KİV-də separatçılığa əsas verən sosial-psixoloji xüsusiyyətlərin müəyyənləşdirilməsi və onların aradan qaldırılması ilə bağlı müəyyən hüquqi qaydaların yaradılmasında, proqramların tərtib olunmasıda əhəmiyyət daşıyır.

Problemin tədqiqi, cəmiyyətdə kriminal durumu gərginləşdirən bir sıra sosial-psixoloji səbəblərin müəyyənləşməsində və bu gərginliyin zəifləməsi istiqamətində zəruri sosial-psixoloji tədbirlərin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir.

Sosial həyatın qanunauyğunluqlarından törəyən separatçılıq sosial problem kimi aktuallaşaraq, elmin tədqiqat obyektinə çevrilmişdir. O, siyasi baxımdan daha çox diqqəti cəlb etdiyi üçün politoloqlar, sosioloqlar problemin sosial-siyasi, nəzəri və metodoloji əsaslarını araşdırmışlar. (A.Q.Duqin, V.V.İlyin, A.İ.Kravçenko, M.P.Kapustin, A.S.Panarin). Problemin mənşəyini V.P.Buldakov, M.Vinoqradav, L.M.Drobiceva, Q.A.Zavarzina, A.Q.Zdravomıslova, P.M.İvanova, V.A.Tişkova, S.M.Xenkina kimi tədqiqatçılar araşdırmışlar.

Avropada etnoslararası münasibətlər barədə fundamental fəlsəfi-psixoloji konsepsiyalardan F. Bartın etniklik - sosial təşkilatlanma, Z. Baumanın postmodern mədəniyyətin qeyri-müəyyənliyi, U.Altermattın Avropada etnonasionalizm, P.Brass, E.Qelner, B.Andersonun sosioloji yanaşma (millət - sosiallaşmanın nəticəsidir), Q. A.Smitin etnik birliklərin millətə çevrilməsi, S.Hantinqtonun sivilizasiyaların toqquşması, Lebonun xalqların psixologiyası, C.Eleyzerin vətəndaş cəmiyyəti və federalizm

mədəniyyətinin qarşılıqlı əlaqəsi və digər bu kimi araşdırmalar olmuşdur.

Lakin, separatçılığın sosial-psixoloji aspektlərinin birbaşa araşdırılması baxımından fundamental elmi tədqiqat işi yoxdur. Separatçılığı sistemli təhlil şəklində araşdıran tədqiqatçılardan E.A.Baqramov, A.V.Volodin, A.V.Avramenko, M.İ.Kodinin adlarını göstərə bilərik. Bu tədqiqatlar problemin ümumi səbəbləri, psixoloji mənşəyi ilə deyil, əsasən yerlərdə mövcud olan separatçılıq hadisələrinin araşdırılması ilə kifayətlənir. Lakin, onların ortaya qoyduqları faktiki materiallarda problemin elmi-konseptual təhlilinə müəyyən dərəcədə imkan verir.

Getdikcə aktuallaşan problem ilə əlaqədar olaraq tədqiqatçılar daha çox etnoseparatçılıq probleminə diqqət yetirirlər. Bu isə, münaqişə zonalarında yaşayan xalqların etnogenezisi, millətçilik və ideologiya məsələləri, etnik münaqişələrin dinamikası ilə bağlı tədqiqat işlərinin sayının artmasına səbəb olmuşdur (L.M. Drobiceva, Q.U.Soldatova, V.A.Tişkov, P.V.Çernov, İ.O.Babkina).

Avropada separatçılıq milli ideologiyanın və etnik inkişafın əlaqəli formalaşması zəminində araşdırılır. Onun qloballaşma və modernləşmə konsepsiyası baxımından araşdırılması isə, C.Kellas, R.Berbax, E.Svetkoviç, D.Kellner kimi tədqiqatçılara aiddir.

Azərbaycanda etnik psixologiya problemləri ilə ilk dəfə məşğul olan tədqiqatçı psixoloq F. İbrahimbəyov olmuşdur. Azərbaycan psixoloqlarından Ə.S.Bayramov, Ə.Ə. Əlizadə və başqaları problemə sosial-psixologiya kontesktində bu və ya digər şəkildə aydınlıq gətirmişlər.

Qeyd olunanları nəzərə alaraq, tədqiqatı bu sahəyə həsr etməyi lazım bilmişik:

**Tədqiqatın məqsəd və vəzifələri.** Separatçılığın baş verməsi və ya fəallaşmasının sosial-psixoloji səbəblərinin araşdırılması, onun perspektivinə zəmin hazırlayan funksional meyllərin müəyyənləşdirilməsi və problemin aradan qaldırılması yollarının axtarılması ilə əlaqəlidir. Habelə, cəmiyyətdə separatizm ilə şərtlənən çoxsaylı etnopsixoloji problemlərin, millətlərarası gərginliyin artmasına imkan yaradan davranışların səbəb və qanunauyğunluqlarının xüsusiyyətlərinin təhlili tədqiqatın məqsədlərinə aiddir.

Tədqiqat işində qarşıya qoyulmuş məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsini zəruri etmişdir:

- separatçılığın sosial-psixoloji mahiyyətini və onun müxtəlif formalarda olan təzahürlərini üzə çıxarmaq;
- separatçılığın formalaşması və funksional fəaliyyətinin şərtləri barədə təsəvvürləri ümumiləşdirmək və sistemləşdirmək;
- separatçılıq prosesinin dinamikasına təsir edən amilləri müəyyənləşdirmək və onların təsnifatını aparmaq;
- separatçılığın xarakter və növlərini müəyyənləşdirmək;
- keçmiş sovet məkanında, Azərbaycan ərazisində separatçılığın sosial-psixoloji köklərini müəyyənləşdirmək;
- tədqiqatın predmetini açıqlamaq baxımından zəruri edən identiklik, etnik stereotip, separatçının hiss və təsəvvürləri kimi məsələlərin təhlilini vermək, separatçılığın sosial-psixoloji xüsusiyyətləri ilə bağlı olan fərziyyələrin həqiqiliyini əsaslandırmaq;
- separatçı qrupların və fərdlərin ümumi və fərqli məqamlarının müqayisəsi əsasında onların sosial-psixoloji xüsusiyyətlərini müəyyənləşdirmək;
- separatçı şüurun formalaşmasında etnomədəni motivasiyaların rolunu araşdırmaq;
- fərdin separatçı qrup daxilində sosiallaşma mexanizmini və onun şəxsiyyətini səciyyələndirən psixoloji amilləri aşkara çıxarmaq;
- etnoseparatçılığın və etnik münaqişələrin sosial-psixoloji xüsusiyyətlərini konkret faktlar əsasında nəzərdən keçirmək;
- milli dövlət quruculuğu prosesində separatçılığın aradan qaldırılması yollarını müəyyənləşdirmək, həmin prosesi sosial-psixoloji baxımdan optimallaşdırmağa kömək edən konkret təkliflər vermək;

**Tədqiqatın metodları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını sosial-fəlsəfi, psixoloji, siyasi təhlilin ümumi elmi metod və prinsipləri, görkəmli mütəfəkkirlərin elmi baxışları, Azərbaycan və xarici ölkə alimlərinin ideya və mülahizələri təşkil edir. Dissertasiyada müqayisəli təhlil metodlarından, səbəbiyyət, tarixi konkretlik və sistemli yanaşma prinsiplərindən istifadə edilmişdir. Elmi-nəzəri zəminlərin müəyyənləşdirilməsində ümummilli lider Heydər Əliyevin və Prezidenti İlham Əliyevin qloballaşma prosesinə münasibət-

ləri, tədqiqatçıların separatçılığın sosial-siyasi, humanitar və sosial-psixoloji məsələlərinə dair yanaşma və mülahizələri əsas götürülmüşdür.

Tədqiqatda separatçılığın koqnitiv əsaslarına yönələn sosial-psixoloji nəzəriyyələr, sosial-mədəni yanaşmalara və mövqelərə xususi diqqət yetirilmişdir. Dissertasiyada etnik qrup ilə identiklik səviyyəsinin, habelə, özünün və yad qrupun variativlik durumu səviyyəsinin ölçülməsində sosial distansiya şkalasının müəyyənləşdirilməsi metodlarından istifadə olunmuşdur. Bununla yanaşı, bizim tərəfimizdən Azərbaycanın müxtəlif regionlarında separatçılıq məsələlərinin araşdırılması məqsədi ilə sosial-psixoloji sorğu keçirilmiş və araşdırmanın materialları dissertasiyada öz əksini tapmışdır.

**Tədqiqatın əsas fərziyyəsi.** Separatçılıq onun üçün əlverişli şəraitdə bir sıra sosial-psixoloji amillərin qarşılıqlı təsiri zəminində formalaşır və qruplararası (etnoslararası) qarşılıqlı təsirin məzmun və xarakterindən asılı olaraq, özünəməxsus təzahür xüsusiyyətlərinə malik olur.

**Əlavə fərziyyələr.**

1. Qloballaşma ilə baglı etnik qrupların daxilində yekdilliyin möhkəmlənməsi zəminində seperatçılıq meyilləri daha da guclənir.
2. Bir sıra amillər, xüsusən də cəmiyyətdə sosiallaşma proseslərinin dərinləşməsi, iqtisadi tənəzzül və sosial-iqtisadi aqressivlik, sosial-psixoloji mühit və s. separatçılıq meyillərinin təzahür etməsində və güclənməsində mühüm rol oynayır.
3. Destruktiv identiklik formalarının fəallaşması, dominant identiklikləri zəiflədən qloballaşma prosesləri ilə bağlıdır. Müasir şəraitdə böyük dövlətlərin dünya nizamına qeyri-adekvat müdaxiləsi zəminində proseslərin dərinləşməsini proqnozlaşdırmaq üçün müəyyən əsaslar mövcuddur.
4. Ənənəçiliyə, avtoritar idarəetmə üsullarına malik kollektiv mədəniyyət sistemlərində separatçılığın daxili-psixoloji amilləri daha fəaldır.
5. Özünəinamsızlıq, bədbinlik, qeyri-müəyyənlik, qısqanclıq və eqoizm kimi psixoloji xüsusiyyətlər separatcı şüurun inkişafına şərait yaradır.

6. Qorxu hissinin zəifləməsini şərtləndirən amillərin fəallaşması separatçılığın daxili-psixoloji mərhələdən xarici sosial-siyasi mərhələyə keçməsini təmin edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1.Bir-biri ilə əlaqəli daxili («super mən – mən», «biz - onlar») və xarici (sosial-iqtisadi, ərazi, siyasi və mədəni) təsir mexanizmləri separatçılığın formalaşmasına təsir göstərir.

2.Separatçılığın genişlənməsinə təkan verən şüuraltı «biz-onlar» qarşıdurması, daha çox sosiomədəni dəyişikliklər şəraitində fəallaşır.

3.Separatçılığın ənənəvi formaları əsasən mədəniyyət vasitəsilə öz fəallığını qoruyub saxlayır. Bu özünü, ənənəvi mədəni stereotiplərdə, adət-ənənələrdə və dini münasibətlərdə göstərir. Cəmiyyətdə sosial-iqtisadi inteqrasiya prosesləri bir çox mənfi stereotiplərin aradan qalxmasına və mədəni inteqrasiyanın inkişafına təsir edir. Bu proses, separatçılığın aradan qaldırılmasının ən mühüm yollarındandır.

4.Cəmiyyətdəki sosial, təbii və fərdi fərqliliklər, diskriminativ separatçı şüurun formalaşmasının əsasında dayanır. Onların aşkarlıq formaları müxtəlif mədəniyyətlərin xarakterinə görə müəyyənləşir.

5.Qloballaşma prosesi separatçı qrupların artmasına və separatçılıq meyillərinin güclənməsinə şərait yaradır.

6.Separatçılığın aradan qaldırılmasının ən əsas yolları cəmiyyətdə bütün insan hüquq və azadlıqlarının təmin olunması, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişafı, sosiomədəni inteqrasiyanın təmin olunması, insanları birləşdirən ümumi dəyərlərin və mənəvi mədəniyyətin təbliği ilə bağlıdır.

7.Separatçı qrupları birləşdirən ümumi cəhət onların sosial azlıqda qalması və siyasi, mədəni, sosial-iqtisadi ayrıseçkilik şəraitində cəmiyyətdən xeyli dərəcədə təcrid olunmasıdır. Həmin qrupların fəallaşmasını təmin edən amillər isə, dövlətin süqutu və ənənəvi dəyərlərin böhran həddinə çatmasıdır.

8.Separatçı qruplarda «biz» identikliyi mənfi stereotiplər ilə səciyyələndirilən «onlar»ın maraq, dəyər və məqsədlərindən maksimum təcrid olunması, qrupun ümumi maraq, tələb, dəyər və arzularının şəxsin özününkünə çevrilməsi hesabına güclənir.

9.Asosiallaşan fərdin «sığınacaq» yerinə çevrilən və totallıq, avtoritarlıq, radikallıq, romantizm mühiti formalaşdıran bütün separatçı qruplar fərdi qrupun ümumi baxış, sanksiya və davranış normalarına tabe edir, «onlar»a qarşı psixoloji gərginlik və aqressiya tərbiyə edir, onun düşünmək qabiliyyətini məhv edən doqmatizm, fanatizm, emosionallıq, irrasionallıq mühitində manipulyasiya edərək, onu assimilyasiyaya məruz qoyur.

**Tədqiqatın elmi yeniliyi.** Separatçılıq bir sosial fenomen kimi politologiya və sosiologiya sahəsində qismən araşdırılmışdır. Biz ilk dəfə burada separatçılıq probleminin sosial-psixoloji məsələlərini qloballaşma proseslərinin dinamikasında sistemli şəkildə araşdırmışıq. Dissertasiyanın elmi yeniliyi həmçinin separatçılıq fenomeninin tarixi-sosial dinamika şəraitində sosial-psixoloji səbəblərini, problemin və onun yaranmasına şərait yaradan amillərin psixoloji strukturunu, tiplərini və funksional xarakterini müəyyənləşdirməkdən, problemin həlli ilə bağlı əsaslı təklif və tövsiyələrin işləyib hazırlamaqdan ibarətdir. Problemin sosial-psixoloji tədqiqində aşağıdakı yenilik məqamları və yeni yanaşmalar öz əksini tapmışdır:

- qloballaşma şəraitində separatçılığın cəmiyyətin sosial-psixoloji durumuna təsir mexanizmlərinin mahiyyəti acıqlanmışdır;
- sosial-iqtisadi, siyasi və mədəni sahələrdə baş verən dəyişikliklərin separatçılıq ilə mümkün əlaqə formalarının dinamikası təhlil olunmuşdur;
- sosial dinamikada ortaya çıxan sosial-psixoloji proseslərin müxtəlif mədəniyyət formalarında, müxtəlif demoqrafik və sosial qruplarda təzahür formalarında müqayisəli təhlili aparılmışdır;
- separatçılığın həm daxili, həm də xarici fenomen kimi, ümumpsixoloji aspektdə təhlili verilmişdir;
- problemin sosial-psixoloji konsepsiyası əsaslandırılmışdır;
- etnopsixoloji şüurun bir-biri ilə sıx əlaqəli etnik özünüdərketmə, özünüinandırma məsələləri koqnitiv və affektiv komponentləri kontekstində araşdırılmışdır;
- Azərbaycanda separatçılığın təzahür formaları və dinamikası sosial-psixoloji aspektdə təhlil edilmişdir;
- separatçılıq psixologiyasının formalaşmasına sosial kontekstin təsiri mexanizmi araşdırılmışdır;

- etnoseparatçılıq çərçivəsində psixi deprivasiyanın, psixoloji akkulturasiya çərçivəsində separatçılığın təhlili aparılmışdır;

- separatçının və separatçı qrupun sosial-psixoloji xüsusiyyətlərinin təhlili verilmişdir;

- problemin sosiomədəni dəyişiklik şəraitində təzahür formalarının təsnifatı və onların sosial-psixoloji tədqiqi reallaşdırılmışdır;

- separatçı qrupların fəaliyyətinə xas olan xarakterik cəhətlər kontekstində onların mövcud olduqları obyektiv şərait çərçivəsində koqnitiv prosesin təhlili aparılmışdır;

- tədqiqat zamanı şəxsin koqnitiv-motivlik sahəsi və həmçinin, cəmiyyətin sosial-siyasi, etnomədəni şəraiti sistem nəzəriyyəsi metodları əsasında əlaqəli araşdırılmışdır;

- identikliyin və onun təşəkkül formalarının dinamikasını tənzimedici, qoruyucu sosial-perseptiv, kompensator və reqressiv psixoloji mexanizmləri tədqiq edilmişdir;

- sosial-perseptiv mexanizmin separatçı qruplar arasında formalaşan emosional-atributiv fenomenlər əsasında araşdırılması təmin olunmuşdur;

- etnik münaqişələrə və etnoseparatçılıq hərəkatlarına xas olan emosiogenlik, məntiqsizlik, simvolizm kimi şüursuz davranış xüsusiyyətlərinin təhlili verilmişdir;

- identiklik problemi ilə əlaqədar ortaya çıxan fərqliliyin separatçılığa çevrilməsi və onun sosial-psixoloji mahiyyəti konkret faktlar əsasında araşdırılmışdır;

- «biz-onlar» qarşıdurması kontekstində separatçılığın şüuraltı tərkibi təhlil edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarından və materiallarından aşagıdakı sahələrdə istifadə oluna bilər:

- separatçılıq problemi ilə əlaqədar gələcək tədqiqat işlərində;

- etnopsixoloji, etnosiyasi, etnososial problem və proseslərin tədqiqində;

- milli və regional siyasətin formalaşdırılmasında, etnoslararası münasibətlərin tənzimlənməsi ilə bağlı dövlət proqramlarının hazırlanmasında, milli inkişaf və milli təhlükəsizlik məsələlərinin həllində;

- sosial psixologiya, etnologiya, etnopsixologiya, sosiologiya, politologiya, kulturologiya və fəlsəfə fənlərinin tədrisində.

**Aprobasiyası və tətbiqi.** Disserrtasiyanın məzmunu və əsas müddəaları müəllifin Azərbaycan, rus və ingilis dillərində çap olunmuş məqalələrində, bir sıra elmi-nəzəri konfrans və seminarlardakı məruzələrində öz əksini tapmışdır. Aparılan araşdırmalar zamanı müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlərə, məlum problemlə əlaqədar hazırlanmış xüsusi hesabatlara, araşdırmalar və ekspert təhlillərinə, Azərbaycan Respublikasının qanunvericilik aktlarına və digər zəruri materiallara müraciət olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universitetinin Psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, beş fəsil, (on altı yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından (621670 işarədən) ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti əsaslandırılmış, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

“**Separatçiliq sosial-psixoloji tədqiqatin predmeti kimi**” adlanan birinci fəsildə separatçılıq probleminin elmi tədqiqat istiqamətləri, nəzəri əsasları və tədqiqat metodları araşdırılır.

XX əsrin sonundan başlayaraq qloballaşmaya paralel şəkildə genişlənən separatçılıq hadisələri ictimai elmlərin xüsusi diqqətinə səbəb olmuşdur. Onu tarixin obyektiv hadisəsi kimi dəyərləndirənlərlə yanaşı, subyektiv amillərlə bağlı olduğunu söyləyənlər də vardır. Əslində bu sosial hadisənin liberalizm, terrorizm, milli azadlıq hərəkatı, milli özünütəyinetmə və başqa bu kimi müxtəlif sosial-siyasi kateqoriyalarla səciyyələndirilməsi müəyyən maraqları təmsil edən subyektiv amillərlə bağlıdır. Lakin problemin subyektiv amillər fövqündə obyektiv elmi-tənqidi şəkildə

araşdırılması gecikir. Bu bir tərəfdən onun ictimai elm sahələrində yeni problem olması ilə digər tərəfdən siyasi-ideoloji cərəyanların elmi təfəkkürə təsiri ilə bağlıdır. İctimai elmlər arasında problemin fundamental araşdırılmasında agırlıq mərkəzi əsasən sosial-psixologiya sahəsinin üzərinə düşür. Lakin son zamanlar separatçılıq ilə bağlı baş verən gərgin sosial-psixoloji hadisələr, sosial-psixologiya sahəsinin inkişafına və aktuallaşmasına səbəb olmuşdur. Çünki problemin elmi mahiyyətinin ortaya qoyulması, sosial-psixoloji tədqiqatların, eksperimentlərin artması sayəsində mümkündür.

Separatçılıq bir sosial termin kimi müasir olsa da, bir ictimai problem kimi bütün dövrlərin, müxtəlif mədəniyyətlərin ictimai dünyagörüşündə öz yerini müxtəlif termin və mənalarda tapmışdır. Biz bunu mifoloji, dini və ictimai-fəlsəfi materialların, həmçinin mədəniyyət sahələrinin araşdırılması nəticəsində müşahidə edirik.

Separatçılıq fenomeninin geniş mənada sosial-psixoloji mahiyyətini anlamaq üçün, onun təsnifatını müəyyənləşdirmək lazımdır. Separatçılıq anlayışının sosial-psixoloji məzmununu ümumi səviyyədə şərti olaraq daxili və xarici formalara bölmək olar. İnsanın cəmiyyətin subyekt və obyekti olması ilə bağlı ümumfəlsəfi metodoloji prinsipə əsasən demək olar ki, həm daxili, həm də xarici aspektlər bir-biri ilə üzvi şəkildə bağlıdırlar. Həm xarici sosial, həm də daxili psixoloji amillər daim qarşılıqlı əlaqədə olub bir-birinə dinamik təsir edən determeniv başlanğıclardır.

Separatizmin təşəkkül mexanizmləri ilə yanaşı onun müxtəlif təzahür formaları vardır. Separatçılığın növləri müxtəlif meyarlar üzrə müəyyənləşdirilir. Aşkar olduğu sahəyə müvafiq olaraq iqtisadi, hüquqi, siyasi-ideoloji separatçılıq ortaya çıxır. O, ikitərəfli və ya çoxtərəfli ola bilər. İdeoloji separatçılıq etnik, dini və regional separatçılığı yaradır. Regionun siyasi məqsədləri onun irredentizm, sesessiya və ya siyasi muxtariyyat formalarında aşkar olmasına şərait yaradır. Dinamik inkişafına görə onun təkamül və radikal formalarını göstərmək olar. Regionun siyasi aktivliyi separatçılığın taktiki və strateci növlərini müəyyənləşdirir. Onun sosial əhəmiyyəti arxaik və proqressiv separatçılığı yaradır. Regionun zaman baxımında

xarakteri isə onun müvəqqəti və daimi formalarını ortaya qoyur. Təzahür xarakterinə görə faktiki və formal separatçılıq yaranır.

Separatçı qrupların öyrənilməsində separatçı fərdin psixoloji durumunun müəyyənləşməsi çox önəmlidir. Çünki separatçı fərdin hər bir fəaliyyətinin təhlükəsizlik, qrupun bütünlüyü, əməkdaşlıq, ədalətlilik və başqa bu kimi tələbatlardan irəli gələn uyğun motivləri vardır. Separatçı qrupda müəyyən motivlər, hisslər, ünsiyyət formaları və dərketmə proseslərinin qarşılıqlı əlaqəsi separatçının psixoloji durumunu formalaşdıran və onu yönləndirən amillərdir. Separatçı fərdlərin öz qrupu (biz) və digər qruplar (onlar) barədə təsəvvürləri, digərlərini qəbul etmək və onlarla ünsiyyətə girmək səviyyəsi, qrupda olan psixoloji durum və proseslər əsas tədqiqat obyektinə çevrilir.

Ümumpsixoloji qanunauyğunluqlar qrupların davranışlarını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Separatçı qrupların, xüsusilə özünü hər hansı bir separatçı qrupa aid edən fərdin sosial təsəvvür, dəyər, norma və davranışlarının sosial-psixoloji baxımdan təhlili həmin qruplar barədə ümumi fikirlərin formalaşmasına şərait yaradır. Bu baxımdan sosial-psixoloji şəxsiyyət nəzəriyyəsi aktuallaşır. Buna görə də biz tədqiqat işində separatçı fərdin psixologiyasını, onun qrup daxilində sosiallaşma mexanizmini, sosial davranışının etnomədəni motivasiyalarını sorğu materialları və müşahidələr əsasında müəyyənləşdirməyə çalışmışıq.

Separatçı qrupun digər sosial qruplarla münasibətlərinin qruplararası və ya etnik münaqişələrin sosial yönləndirmə nəzəriyyəsi əsasında sosial-psixoloji tədqiqi metodları problemin mənşəyini öyrənmək və onu həll etmək baxımından böyük əhəmiyyətə malikdir. Bu yanaşma nəinki separatçının, hətta separatçı qrupun real fəaliyyətinə qədər olan xüsusi psixoloji durumunu ortaya qoymağa imkan verir. Koqnitiv, emosional və davranış tərkibli sosial yönləndirmə etnik, sosial və qruplararası xarakterdə ola bilər. Sosial yönləndirmədə formalaşan münasibət çox vaxt təhlükənin sovuşmasına, tələbatın öyrənilərək, fəaliyyətə çevrilməsinə şərait yaradır. Məsələn, Dağlıq Qarabağ ərazində yaşayan ermənilər və Azərbaycanlılar müəyyən dövrlərdə baş verən etnik münaqişələr ilə əlaqədar olaraq , bir-birinə qarşı düşmən

mövqedə dayanmışlar. Lakin onlar uzun müddət həmçinin sülh şəraitində də yaşamışlar. Son dövrlərdə Azərbaycanlıların Ermənistan və Dağlıq Qarabağ ərazilərindən qovulması adekvat olaraq, ermənilərin Azərbaycan ərazilərini tərk etmələrinə səbəb olmuşdur. Bu isə Azərbaycan və Ermənistan arasında etnik münaqişə ocağının yaranmasına gətirib çıxarmışdır. Halbuki tərəflər arasında belə bir münaqişənin başlanmasına tələbat olmamışdır. Deməli, insanların tələbatına uyğun olmayan emosional yönləndirmə onları münaqişə fəaliyyətinə sürükləmişdir.

Xarici sosial-iqtisadi gərginlik daxili psixoloji separatçılıq meyillərinin yaranmasına səbəb olduğu kimi, daxili psixoloji gərginlik də xarici separatçılığın yaranmasına səbəb olur. Lakin separatçılığın daxili formaları onun xarici formalarından fərqli olaraq, daha çox irrasional və ya şüuraltı instinktlərə, emosiyalara, həmçinin tarixi-mədəni ənənələrə bağlıdır. Buna görə də onların tədqiqində psixoanalitik və etnoqrafiq metodların qarşılıqlı surətdə tətbiqi vacibdir. Separatçılığın xarici formaları daxili psixoloji səbəblərdən ortaya çıxsa da, şüur səviyyəsində zahiri təzahür formalarında müşahidə edilən fərqliliklərə meyilli olur. Əslində isə zahiri fərqliliklər separatçılığın əsil səbəbləri deyildir. Buna görə də biz separatçılığın zahiri fərqliliklərə və daxili instinktlərə əsaslanan formalarının təsnifatını aparacağıq.

Separatçılığın həm daxili, həm də xarici formalarını əslində qeyri-psixoloji metodların fövqündə müstəqil şəkildə tədqiq etmək mümkün olmadığı kimi, onları digər ictimaielmlərdən təcrid olunmuş şəkildə də araşdırmaq çətindir. Çünki bu sosial hadisə geniş mənada cəmiyyətin bütün sahələrini əhatə edir ki, bu da cəmiyyətin müxtəlif sahələrini araşdıran elmlərin problemə sistemli yanaşmasını tələb edir. Bu baxımdan müasir sinergetik metodlardan və ümumfəlsəfi prinsiplərdən istifadə edərək, biz problemi əlaqəli şəkildə tədqiq etməyə çalışacağıq.

Cəmiyyəti şəxsiyyətdən kənarda öyrənmək mümkün olmadığı kimi, şəxsiyyəti də cəmiyyətdən ayrı dərk etmək çox çətindir. Onlar bir-birinə təsir edirlər. İctimai qanunauyğunluqlar insanların fəaliyyətindən, iradə və şüurundan asılıdır. Cəmiyyətdə birgə fəaliyyət nəticəsində insanlararası əlaqənin xüsusi növləri ortaya

çıxır. Cəmiyyətdə müşahidə olunan separatçılıq meyillərinin mənşəyi insanın psixi durumundan qaynaqlanır. İnsanın psixi durumu isə cəmiyyətin əsasən ailə institutu vasitəsilə ötürülən ənənəvi sosial-mədəni dəyərləri zəmnində formalaşır. Bu ənənələr fərdin şüuraltı aləmində müəyyən qatların və strukturların formalaşmasını təmin edir. Bu baxımdan fərdin şüuru ilə kollektiv şüur arasındakı sərhəd aradan qalxır və onlar bir-birini tamamlayır.

"**Qloballaşma şəraitində separatçı qrupların sosial-psixoloji xüsusiyyətləri**" adlanan ikinci fəsildə separatçı qruplar və onları səciyyələndirən sosial-psixoloji xüsusiyyətlərdən, cinsi dini, irqi və regional separatçılıqdan bəhs olunur.

Separatçı qrupda sosial təsəvvürlər kollektivləşərək, qrupdaxili inteqrasiyanı təmin edir. Bu ümumi, irsi, tarixi təsəvvür və baxışlar qrup üzvlərinin təlim və tərbiyəsinin əsasını təşkil edir, onların qrupa məxsus kimliyinin formalaşmasına, separatçılıq şüurunun təşəkkül tapmasına şərait yaradır. Separatçı şüur, məhz tarixi-mədəni irsin, qapalı qrupdaxili təsəvvürlərin nəticəsi kimi, ətraf mühiti müşahidə edərək qiymətləndirir. Qrup daxilində fərdlərin baxış və davranışları ilə qrupun ümumi baxış və davranışları arasında eyniyyət müşahidə olunur. Məhz bu qrupdaxili mentalitetin formalaşması mərhələsi hesab olunur.

Tərəflər «biz və onlar» antitezisindən çıxış edərək, əks tərəfi mənfi keyfiyyətlərlə səciyyələndirirlər. Bu sosial psixofizioloji paradiqma separatçılıq meyillərinin formalaşması mexanizminə aydınlıq gətirməyə kömək edir. Məhz bu antitezisdən çıxış edərək hər iki tərəf qarşısındakını qiymətləndirəndə onun görkəmi, sosiomədəni əlamətləri, dini inancları, adət-ənənələri, həyat tərzləri, dünyagörüşləri, düşüncələri ilə bağlı bütün identiklik formaları «biz» tərəfinin şüurunda «şər» anlayışının məzmununu təşkil edir və onların şər barədə düşüncələri əks tərəfin identiklikləri ilə səciyyələnir. Məsələn, Azərbaycan xalqının mifoloji təfəkküründə «onlar» kateqoriyasına aid edilən düşmən qüvvəllər qaranlıq dünyanın əcaib sakinləri kimi (divlər, pərilər) səciyyələndirilir.

Separatçı qrupların daxili psixoloji «biz» mexanizmi hər bir qrupun mövcudiyyətini təşkil edir. «Biz» mexanizmi qrup üzvlərinin təbii və tarixi ənənələrə bağlı olan eyni kimliyi (identiklik), birgə

fəaliyyət və əməkdaşlıq formaları üzərində qurularaq, inkişaf edir. Bu baxımdan separatçı qruplar demək olar ki, sosial qrupların təsnifatındakı bir çox qruplarda özünü büruzə verir. Bu baxımdan separatçı qrupların daxili instinktlərə və zahiri fərqliliklərə əsaslanan aktual formaları yaranır (regional, cinsi, dini, irqi, etnik separatçılıq).

Radikal separatçı qruplar öz məqsədinə çatmaq üçün çağırış, şüar, panika, vətəndaş itaətsizliyi, partizan döyüş taktikası və terrorizmdən istifadə edirlər. Onlar «ya hamısı, yada heç nə» prinsipindən çıxış edərək, güzəştə getmək düşüncəsində olmur, qrupun məqsədlərini digərlərinin mənafelərindən üstün tuturlar. Burada əsas olan cəhət qrupu təşkil edən insanların fiziki-psixoloji təhlükəsizliyi deyil, əsas «məqsəd vasitəni müəyyənləşdirir» prinsipindən çıxış edərək, böyük qurbanlar bahasına olsa belə, qarşıya qoyulan məqsədə çatmaqdır. Çünki separatçı liderlər özlərini və öz düşüncələrini «ali», onlara tabe olan qrup üzvlərini isə bu «ali» düşüncələri həyata keçirən «vasitə» kimi dəyərləndirirlər.

Bu qəbildən olan separatçı qrupların baxışlarında ətraf aləm «ağ-qara» rənglərdən ibarətdir. Onların davranışları etik və hüquqi normaların fövqündədir Bu baxımdan onların psixologiyası cinayətkarlıq psixologiyası ilə uzlaşır. Lakin onlar öz hərəkətlərinə haqq qazandırırlar. Buna görə də məlum mühitdə terrorizm kimi təhlükəli amillər qrup üzvləri tərəfindən adi şəkildə qəbul oluna bilər. Bu bir daha separatçılıq mühitində fanatizm elementlərinin formalaşdığını göstərir. Çünki onların öz məqsədinə çatması üçün öz həyatlarını bu yolda qurban verməyə hazır olan fanatiklərə ehtiyacları vardır. Fanatik bütün alternativləri təkzib edən və konkret bir əqidəyə bağlı olan digərlərinə qarşı dözülməz olan ifrat bir düşüncə və davranış sahibidir. Həmin şəxsin bu düşüncədən ayrılması mümkün deyildir. Çünki həmin düşüncə onun həyatının mənasını və münasibətlərinin məzmununu təşkil edirlər. Onlara qarşı tənqidi münasibət qəbul olunmazdır. Buna görə də, onu bu düşüncədən ayırmaq onu öz həyatından ayırmağa bərabər olur. Bununla əlaqədar olaraq, fanatiklər arasında əqidə uğrunda intihar-terror hadisələri psixoloji baxımdan mümkündür. Təbii ki, fanatizm fərdi deyil, kütləvi bir fenomen olduğu üçün onun cəmiyyət üçün təhlükəsi daha böyükdür.

Separatçı qruplar arasında kompensator mexanizminin işə düşməsi «natamam qrup» kompleksinin nəticəsində formalaşır. Bu mexanizm təhqir olunma hipertrofik hissinin oyanmasına, separatçı qrupun marginallığının dərk olunmasına şərait yaradır. Kompensator kompleksi qapalılığa, özünü hamıdan üstün hesab etməyə, real və xəyali təhqirə qarşı qisas almaq və ya mübarizə aparmaq kimi hissləri oyadır. Xüsusən separatçı qruplar sosial-siyasi dəyişikliklər zamanı, vətəndaş identikliyinin böhranı zamanı öz kompensator funksiyasını yerinə yetirir. Bu kütləvi miqyasda hiperidentikliyin artması şəraitində özünü daha qabarıq şəkildə büruzə verir. Antiassimlyasiya əhval-ruhiyyəsi yanlız psixoloji planda deyil, həmçinin siyasi-iqtisadi müstəqillik cəhdlərindəki ləyaqətin bərpasında aktuallaşır.

Kiçik və böyük qruplar arasında, hakimiyyət və xalq əlaqələrini ifadə edən ictimai münasibətlər sistemi mürəkkəb sosial-psixoloji məqamlarla müşayiət olunur. Bu münasibətlər sistemində psixoloji müvazinətin pozulması separatçılıq kimi müəyyən sosial problemlərin yaranmasına şərait yaradır. Bu baxımdan separatçılığın daxili və xarici formaları ictimai münasibətlərin bütün formaları ilə qarşılıqlı əlaqədədir. İctimai münasibətlər sisteminin pozulması ilə qruplararası separatçılıq meyillərini fəallaşdıran səbəblər aşağıdakılardır:

1. Siyasi amillər - ölkədə insan hüquqlarına qarşı çıxan siyasi hakimiyyət, totalitar rejim və bürokratik idarəetmə sisteminin mövcudluğu; hakimiyyətin ölkə ərazisində etnik qrupların insan hüquqlarını pozan, superetnik şovinizmə əsaslanan milli siyasəti; ölkədə qanunsuzluq, ədalətsizlik hallarının (rüşvət, cinayət, özbaşınalıq) artması; ölkədə beynəlxalq hüquq normalarına məhəl qoyulmaması, bərabərhüquqluluq və təbii hüquq prinsiplərinin pozulması; ölkədə etnik qrupların siyasi ayrı-seçkiliyə məruz qalması və ölkənin sosial-siyasi institutlarında, hakimiyyət strukturunda təmsil olunmaq və ya səsvermə hüququndan məhrum olması; ölkədə daxili çəkişmələrin, intriqaların yaranması və sosial birliyin pozulması; dövlətin süqutu, yaxud daxili və xarici müharibələr zəminində zəifləməsi.

2. İqtisadi amillər - hakimiyyətin uğursuz iqtisadi islahatları və digər bölgələrdən fərqli olaraq etnik qrupların məskunlaşdığı bölgələrdə infrastrukturun, iqtisadiyyatın zəif inkişafı; xüsusi mülkiyyət və əmək hüququnun pozulması; iqtisadi böhran, işsizlik, yoxsulluq, gəlir bölgüsündə ədalətsizlik.

3. Sosiomədəni amillər - etnik qrupların dil, din, adət-ənənə və başqa dəyərlərinin sıxışdırılması; intolerantlıq ilə bağlı psixoloji durumun gərginləşməsi.

4. Demoqrafiq amillər - çoxmillətli vahid dövlət çərçivəsində əhalinin qeyri-bərabər yerləşdirilməsi; ərazi sıxlığı, regionun sosial təminat problemləri.

5. Tarixi amillər - millətin tarixi yaddaşında həkk olunan keçmiş incikliklər (soyqırım, repressiya, kütləvi sürgünlər); keçmiş inzibati bölgülər ilə əlaqədar yaranan narazılıqlar (muxtar ərazilər), tarixi keçid dövrləriinin gərginlikləri.

Separatçı qruplarda birləşən fərdlərin ümumi maraq və tələbləri, əsasən onların ayrıseçkilik nəticəsində cəmiyyətdən təcrid olunması və ya özlərini təcrid etmələri ilə bağlı olur. Buna görə də, separatçı qruplarda təmsil insanlar müxtəlif sosial mənşədən olurlar. Onları birləşdirən ümumi cəhət «onlar»a qarşı olan mübarizədə «biz» psixoloji kimliyini mənimsəmələridir. Burada «onlar» yerində müxtəlif sosial obyektlər ola bilər. Lakin bu müxtəlif obyektləri vahid bir «onlar» obyektində birləşdirən siyasi-ideoloji nəzəriyyələr də meydana çıxır.

Separatçı qrupu təmsil edən fərdlərin psixoloji durumu qrupun sosial-psixoloji xüsusiyyətlərini müəyyənləşdirmək baxımından ciddi əhəmiyyət kəsb edir. Bu qrupda olan ümumi psixoloji durum həm də qrupu təşkil edən fərdlərin psixoloji durumundan xəbər verir, onların dünyagörüşü, təsəvvür, dəyər, norma və davranışlarını müəyyənləşdirir. Hər bir fərd bu qrup daxilində öz yerini tapır və özünün əhəmiyyətini məhz bu qrupda dərk etməyə başlayır. Çox vaxt cəmiyyətdə öz yerini tapa bilməyən uğursuz insanlar separatçı, terrorist qruplarda özlərini reallaşdırmağa və ya təsdiq etməyə çalışırlar. Çünki qrup daxilində formalaşan mikromühitdə onlara verilən dəyər onların psixoloji kompleksdən çıxmasına şərait yaradır. Yəni fərdə təlqin olunur ki, şəxsi uğursuzluqlarının səbəbi onun

özündə deyil, onu əhatə edən cəmiyyətdədir. Beləliklə, fərd sosial «biz-onlar» qarşıdurmasına cəlb olunmaqla, öz uğursuzluqlarını «onlar» ilə özünü isə «biz» ilə eyniləşdirir. Bu psixoloji durum onu özü ilə deyil, «onlar» ilə mübarizə etməyə vadar edir. «Onlar» üzərində qazanılan hər hansı ümumi bir qələbə qrupun fərdlərinin hər birinin şəxsi qələbəsi kimi dərk olunur. Çünki separatçı qrup daxilində fərdi deyil, kollektiv şüur hökm sürür.

Separatçı qrup daxilində formalaşan mikromühit fərdi istək və məqsədləri ümumi istək və məqsədlərlə əvəz edir. Halbuki qrup daxilində müxtəlif sosial təbəqələri, demoqrafiq qrupları təmsil edən müxtəlif insanlar vardır. Bu insanların fərqli dünyagörüşləri, həyat təcrübələri, bilik səviyyələri, psixoloji durumları bir-birindən fərqlənir. Lakin qrup daxilində fərdi xüsusiyyətlər tədricən kollektiv xüsusiyyətlərə çevrilir. Daha doğrusu bu mikromühitdə kollektiv psixoloji durum fərdi xüsusiyyətləri assimilyasiya edir. Buradakı fərdlər praqmatik deyil, daha çox irrasional, emosional romantik hisslərə qapılırlar. Onların istək və məqsədləri çox vaxt reallıqla uzlaşmır. Lakin onların şüurunda ideologiya və psixoloji təsir mexanizmləri ilə formalaşdırılan «xoşbəxt gələcək» layihəsi qrup üzvləri tərəfindən reallıq kimi dərk olunur. Bu isə, onların şüurunda fanatizmin daha dərin kök salmasına şərait yaradır.

Separatçı qrup üzvünün fərdi seçim etməsi və ya barışığa gəlməsi çox mürəkkəb bir məsələdir. Çünki o, öz seçimi ilə kollektiv iradəyə qarşı durmaqdan qorxur. Digər tərəfdən onun «biz» başlanğıcına qarşı durması, onun özünə qarşı durması ilə eyniləşdirilə bilər. Çünki o, tədricən öz kimliyini məhz «biz» ilə müəyyənləşdirmişdir. Bu baxımdan qorxu hissi onun həm özünün kimliyini itirməsindən, həm də kollektiv «biz» başlanğıcının ona qarşı yönəlməsindən qaynaqlanır. Buna görə separatçı qrup üzvləri öz fəaliyyətlərində davranışlarında özlərini deyil, kollektivi təmsil etməyə, öz istək və məqsədləri uğrunda deyil, kollektiv «biz»in istək və məqsədləri uğrunda çalışırlar. Bu ümumi psixoloji durum fərdlərin müstəqilliyini məhdudlaşdırır. Bu tip separatçı qruplarda əsas söz və fəaliyyət separatçı liderlərə və ya separatçı elitaya məxsus olur. Buna görə də separatçılıqla mübarizə edən dövlətlər

separatçıların liderləri ilə yaxud onları dəstəkləyən digər dövlətlərin siyasi hakimiyyəti ilə danışıqlara getməyə üstünlük verirlər.

Separatçı qrupun üzvləri psixoloji baxımdan ikiləşməyə məruz qalırlar. Onlar bir tərəfdən qismən təcrid olunduqları «onlar»dan, yəni vahid bir orqanizm halında olan cəmiyyətdən tam təcrid oluna bilmirlər. Digər tərəfdən isə öz kimlikləri ilə eyniləşdirilən separatçı qrupun «biz» psixoloji asılılığından qurtula bilmirlər. Buna görə də qrup daxilində fərdlərin psixoloji durumu çox gərgin vəziyyətdə olur. Bu gərginlik separatçı qrupların aqressiv davranışlarında müşahidə olunur. Qrup daxilində formalaşan bu aqressiv gərginliyin yönləndirilməsi, fərdi psixoloji fərqlilikləri ümumi psixoloji duruma uyğunlaşdırması müəyyən psixoloji təsir mexanizmləri ilə həyata keçirilir. «Biz» və «onlar», «biz» və «qeyri-müəyyənlik» arasında qalan şüurun seçimi çox vaxt tənhalıq və ya «ölüm» qorxusundan irəli gələn psixoloji durumdur. Çünki bu psixoloji mexanizm, tarixi təcrübənin nəticəsi kimi, şüuraltı aləmdə iz qoymuşdur. Qədim cəmiyyətlərdə insanın öz cəmiyyətindən uzaqlaşdırılması cəzası, çox vaxt «ölüm» cəzasına ulu əcdadların ilahi lütfdən məhrum olmağa bərabər sayılmışdır. Bu gün qloballaşma şəraitində parçalanan, yox olan və ya dəyişən kimlik formaları fərdlərin qarşısında qeyri-müəyyənlik mənzərəsi yaratmışdır ki, bu da psixoloji sığınacaq kimi təbii kimlik formalarını aktuallaşdırmışdır. Bu baxımdan etnik kimliyə əsaslanan etnoseparatçılıq meyilləri müasir dövrün ən aktual problemlərindən birinə çevrilmişdir.

Nəticə etibarilə demək olar ki, separatçı qruplar öz forma (şərti, real, kiçik, böyük) və məzmununa (irqi, regional, etnik, dini) görə bir-birindən fərqlənirlər. Lakin onları birləşdirən ümumi cəhət muvafiq ayrıseçkilik (siyasi, mədəni, sosial-iqtisadi) şəraiti ilə bağlıdır. Onları cəmiyyətdən təcrid edən bu amillər separatçı qrupların ümumpsixoloji problemlərini təşkil edir. Onların fəallaşmasını təmin edən sosial amillər isə dövlətin süqütü və cəmiyyətdə ənənəvi dəyərlərin böhran keçirməsidir. Separatçı qrupu səciyyələndirən əsas sosial-psixoloji xüsusiyyətlər aşağıdakılardır:

1. Qrup daxilində «biz» identikliyinin artan səviyyəsi «onlar»dan maksimum təcrid olunmaq səviyyəsinə bərabərdir.

2. Qrupun mentalitetində «onlar» barədə mənfi stereotipləri artırmaq, müsbətləri isə ləğv etmək lazımdır.

3. Qrupun daxili maraq, dəyər və məqsədləri «onlar»a aid olanların tam əksini təşkil etməlidir.

4. Qrupun ümumi maraq, tələb, dəyər və arzuları qrup üzvlərinin şəxsi maraq, tələb, dəyər və arzularına çevrilməlidr.

5. Qrupda hamı üçün vacib olan ümumi baxış və davranış normaları mövcuddur.

6. Qrup cəmiyyətdən təcrid olunan fərdlərin «sığınacaq» yeridir.

7. Qrup daim «onlar»a qarşı psixoloji gərginlik və aqressiya durumundadır.

8. Qrup üzvləri «biz» və «onlar» arasında psixoloji ziddiyyət durumundadır.

9. Qrup onun lideri və ya idarəetmə elitası tərəfindən manipulyasiya olunur.

10. Qrup daxilində totallıq, avtoritarlıq, radikallıq, romantizm hökm sürür.

11. Qrup daxilində düşünmək qabiliyyətini məhv edən ehkamçılıq, fanatizm, emosionallıq, irrasionallıq hökm sürür.

12. Qrup daxilində vahid bir mentalitet və davranış normalarının gerçəkləşməsi istiqamətində assimilyasiya prosesi gedir.

13. Qrup daxilində qrup üzvlərinin fikir və davranışlarını tənzimləyən qrup sanksiyaları və normaları mövcuddur.

“ **Separatçinin sosial-psixoloji təbiəti**” adlanan üçüncü fəsildə qloballaşma şəraitində şəxsiyyətin formalaşması məsələsi, fərdin separatçı qrup daxilində sosiallaşması mexanizmi və separatçının sosial davranışının etnomədəni motivləri araşdırılır.

Nəticə olaraq deyə bilərik ki, yeni elmi ideyalar, innovasiyalar, miqrasiyalar və başqa yollarla genişlənən qloballaşma prosesi bütün cəmiyyətlərə bu və ya digər şəkildə daxil olur. Hər bir cəmiyyətdə onun aparıcı qüvvəsi gənc nəsildir. Bu baxımdan qloballaşma nəsillər arasında separatçılıq meyillərini daha da dərinləşdirir. Hər bir cəmiyyətdə fərdlərin yeni dəyərlərə adaptasiyası ilə əlaqədar olaraq, akultirzasiya, identiklik problemləri yaranır. Əslində bu, yeni

şəraitdə şəxsiyyətin formalaşması ilə əlaqədar baş verən sosial-psixoloji proseslərdir. Bu proseslərin nəticəsi olaraq, müxtəlif xarakterli sosiomədəni və siyasi strukturlarda fərdlərin (həmçinin müxtəlif sosial qrupların) sosiopsixoloji tipologiyası ortaya çıxır (tərkedici, şovinist, marginal, əlaqələndirici).

Hər bir cəmiyyətin mövcudluluğu onun özünüqoruma mexanizmi və dünyaya inteqrasiya səviyyəsi ilə bağlıdır. Tərkedicilik və şovinizm funksiyası cəmiyyətin varlığını təhlükə altında qoyur. Çünki onlardan biri (tərkedicilik) özünüqoruma mexanizmindən, digəri isə (şovinizm) dünyaya inteqrasiyadan məhrum edir. Bu tip sosial-psixoloji istiqamətlərin cəmiyyətdə inkişafı cəmiyyətin həm daxildən, həm də xaricdən parçalanmasına gətirib çıxarır. Bu özünü daxildə fundamentalist və modernist, titul və azlıqda olan etnik qruplar arasında olan münasibətlərdə separatçılıq meyillərində büruzə verir.

Əlaqələndirici və marginal qruplar arasında separatçılıq meyilləri azdır. Çünki onlardan biri (marginal) özünüqoruma və inteqrasiyaya laqeydliyi ilə digəri isə (əlaqələndirici) hər ikisini öz davranış və fəaliyyətində gerçəkləşdirməklə seçilir. Marginal fərdlərin mövqeyi vətəndaş cəmiyyəti quruculuğu prosesinə mənfi təsir göstərə bilər. Yəni müəyyən radikal qüvvələr onların passivliyindən istifadə edərək, cəmiyyətdə diktatura rejiminin yaradılmasına cəhd edə bilərlər.

Bizim burada tədqiqat istiqamətimiz fərdin separatçı qrup daxilində sosiallaşması mexanizmini müəyyənləşdirməkdən ibarətdir. Aparılan müşahidələr təsdiq edir ki, separatçı qruplar daxilində sosiallaşan fərdlər qrupun daha radikal və fanat üzvləri olurlar. Onlar əsasən uşaqlıq yaşlarından, gənclik illərindən separatçı qruplarda təmsil olunan və dolayı yolla separatçı mühitdə (ailə kollektiv) yetişən insanlardır. Bu baxımdan separatçının təşəkkül mexanizmlərinin formalaşmasında etnik sosialllaşmanın və mədəni varisliyin böyük rolu vardır. Etnik sosiallaşma uşaqlarda konkret etnik birliyə aid olan davranış, hissiyyyat, dəyərlərin, attitüdlərin qəbulunu tərbiyə edir və onlarda «biz-onlar» psixoloji dualizmini formalaşdırır. Mədəni varislik sayəsində etnik qrup öz mədəniyyətini

təlim və tərbiyə vastəsilə digər nəsilə ötürür. Üç növ mədəni varislik növü vardır:

1. Şaquli – mədəni dəyərlər (bacarıqlar, inanclar və s.) valideynlərdən uşaqlara ötürülür.

2. Üfüiqi - uşaq öz həmyaşıdları ilə münasibətdə olaraq, yaşlanana qədər sosial təcrübəni və mədəni ənənələri mənimsəyir.

3. Qeyri-xətti – uşaq məktəb və ya digər tədris müəssisəsindən, həmçinin onu əhatə edən insanlardan (qohum, qonşu, məktəb kollektivi) müəyyən qaydaları mənimsəyir.

Ermənilər öz uşaqlarında türk milləti barədə mənfi stereotiplər formalaşdırırlar. Bu ilkin təsəvvürlər onları ömrünün axırlarına kimi müşayiət edir. Çünki qriqoryan kilsə institutu erməni millətinin şüurunda daim «türk düşmənçiliyini» xüsusi milli-dini bayram mərasimləri ilə (uydurulmuş «erməni soyqırımı») aktuallaşdırır. Bu psixoloji durum onları daim türk millətinə qarşı intiqam, qəzəb hissi ilə müşayiət edir. Erməni separatçılığının kökündə məhz bu qisas hissinə əsaslanan «biz-onlar» qarşıdurması dayanır.

Desosiallaşma prosesi müəyyən insanların cəmiyyətdən təcrid olunmasına və ya özünü təcrid etməsinə (cinayətkar, əyyaş, narkoman, işsiz və s), şəhər-kənd, varlı-yoxsul arasında balansın pozulmasına, separatçılığın genişlənməsinə şərait yaradır. Çox vaxt desosiallaşma amillərinə özlərini reallaşdırmaq və ya təsdiq etmək məqsədi izləyən separatçı qruplar arasında təsadüf olunur. Çünki onlar separatçı qrup daxilində sosiallaşaraq, vahid «biz» kimliyində assimlyasiya olunurlar. Bu kimlik cəmiyyətdən təcrid olunanlara əlavə güc və dəyər verir. Onlar öz natamamlıq kompleksini «biz» statusunda tamamlayırlar. Həmin şəxslər «biz» statusuna aid olan ümumi keyfiyyətləri mənimsəməklə, öz natamamlıq keyfiyyətlərini «onlar» tərəfin üzərinə yükləyirlər.

Fərdin separatçı qrup daxilində sosiallaşması və fəaliyyətinin nəticəsi, qrup daxilində reallaşaraq qiymətləndirilir. Qiymətləndirmə dərəcəsi qrupun ümumi mənafeyinə uyğunluq dərəcəsinə görə müəyyənləşdirilir. Qrupda sosial status dərəcəsi qrup liderlərinin qiymətləndirməsindən asılıdır. Qrupda fərdin «itirilmiş statusu bərpa» olunsa da, əslində, fərd qrup daxilində sosiallaşaraq, öz «mən» başlanğıcını itirir. Çünki bu mühitdə hökm

sürən emosional hisslər və qrup liderlərinə olan psixoloji təhkimçilik onu özünüdərk prosesindən ayırır. Bu isə, fərdin sosiallaşması deyil, onun müəyyən gizli maraqların həyata keçirilməsi istiqamətində bir vasitəyə çevrilməsi deməkdir.

“**Etnik qruplarin və etnoseparatçiliğin sosial-psixoloji səpgisi**” adlanan dördüncü fəsildə etnik qrup və etnik şüur məsələsi, etnoseparatçılığın sosial-psixoloji xüsusiyyətləri, etnik münaqişələrin sosial-psixoloji xüsusiyyətləri, erməni separatçılığının sosial-psixoloji xüsusiyyətləri tədqiq edilmişdir.

Etnosentrizm ilkin mərhələdə adi görünsədə sonradan o, separatçılıq mərhələsinə keçir. Özünü ideallaşdırmaq, digərlərini alçaltmaq hesabına baş verirsə, bu separatçılığın ilk mərhələsi hesab oluna bilər. Digərlərinə qarşı intolerant münasibətlər dinamikasında separatçılıq qaçınılmaz sosial hadisəyə çevrilir. Kollektivist mədəniyyətlər etnosentrist xarakterli olur. Ermənilərdə bu kollektivist etnosentrist mədəniyyət qriqoryan kilsəsi ətrafında formalaşmışdır. Çünki bu xristian kilsəsi yanlız erməni millətinə mənsub olan qriqoryan təriqətinə xidmət edir. Bu baxımdan ermənilərdə din milli xarakter daşıyır. Biz bunu yəhudilər barədə də söyləyə bilərik. Milli dinlər etnosentrizm psixologiyasının formalaşmasına şərait yaradırlar. Azərbaycanlılar isə, islam dininin ümmətçilik identikliyi ilə özlərini tanımış və hətta XX əsrin əvvəllərinə kimi «müsəlman» identikliyi, milli identiklik formasına bərabər tutulmuşdur. Buna görə də Azərbaycanlılarda digərlərinə qarşı olan tolerantlığın səviyyəsi ümumbəşəri səviyyədədir.

Etnoseparatçılıq kontekstində psixi deprivasiya hadisələri ortaya çıxır. Bu adətən ayrı-ayrı fərd və qruplarda digər fərd və qruplarla müqayisədə özünün bədbəxtliyi hissini doğuran şüurlu (öz vəziyyətinin səbəblərini anlayanlar) şüursuz (öz vəziyyətinin səbəblərini anlamayanlar) və ya latent (öz bədbəxtliklərini başqalarından gizlədənlər) psixoloji durumdur. O, əsasən subyektlərin öz həyatlarını müvafiq olaraq qura biləcəkləri əhəmiyyətli sərvətlər sisteminin yoxluğundan meydana çıxır. Əgər etnos psixi deprivasiya halətilə əhatə olunursa, adətən bu, uzun müddət ərzində etnik qruplar arasında münasibətlərdə kəskin və həll edilməmiş iqtisadi, siyasi, sosial, sərvət baxımdan konfliktlərin

nəticəsi olur. Son nəticədə cəmiyyətdə öz iqtisadi, siyasi və sosial vəziyyətlərindən narazı qalan etnik azlıqlarda talesizlik hissinin artması ilə bağlı fikir həmin azlıqlar arasında separatçı əhvali-ruhiyyəyə səbəb olur. Etnik qrupda psixi deprivasiyanın yaranması üçün hər şeydən əvvəl, o, iqtisadi və sosial deprivasiyaya məruz qalmalıdır.

Etnoseparatçılığın ilk əlamətləri birinci növbədə iqtisadi deprivasiya zəminində baş qaldırır. Bu, cəmiyyətdə etnik qruplar və ya onların nümayəndələri arasında gəlirlər qeyri-bərabər bölündüyü, onların əsas tələbatlarının təmin olunması sahəsinə və səviyyəsinə ciddiməhdudiyyət qoyulduğu zaman baş verir. Bu durumlarda həmin etnik qruplar adətən hakimiyyətdə olan böyük etnik birliyin apardığı iqtisadi siyasətə münasibətdə iqtisadi yadlaşma və narazılıq vəziyyətində olur. Sıxışdırılmış etnik qrupların düşdüyü iqtisadi deprivasiyanın obyektiv formasına subyektiv forma əlavə edildikcə etnoseparatçı meyil yaranır və güclənir. Göstərilən şərait sayəsində etnoseparatçı hərəkatın dini çalar kəsb etməsi halları da az deyil.

Etnik özünüqiymətləndirmənin aşağı olması öz növbəsində onun subyektlərində qapanmaq, digərlərindən ayrılmaq arzusu doğurur. Sanki qarşılıqlı proses baş verir: əksəriyyət bəzi etnik birlikdən, onun mədəniyyətini yabançı kimi qavrayaraq, ayrılır; hansısa etnik birlik də həmçinin digər çoxsaylı etnik birliklərdən, onları ayrı-seçkili münasibətlərin daşıyıcısı kimi qavrayaraq, ayrılır. Artıq bu aktda əvvəlcə gizli, sonra isə getdikcə daha aydın şəkildə yadlaşmaya, separatçı hərəkətlərə yönəldilmiş əlamətlər, elementlər təzahür edir. Etnik özünü identifikasiya prosesi son nəticədə geniş sosial məna kəsb edir: Neqativ etnik identiklik tədricən neqativ sosial identikliyə çevrilir. Etnik birliklərin bir qrupu ilə hansısa bitərəf sıxışdırılmış etnik birlik arasında sosial-psixoloji hüdud belə təşəkkül edir və bu hüdud bütün qruplararası, millətlərarası münasibətlərdə izlənilir, cəmiyyətin bütün sosial institutlarına, təşkilatlarına nüfuz edir. Özünü cəmiyyətdə neqativ qiymətləndirən etnik birliyin üzvü kimi dərketmə identikliyin bu prinsip üzrə formalaşmasını nəzərdə tutur: biz pisik, bu, sizin fikrinizdir, ancaq biz namuslu və ağıllı adamlarıq. Bu isə artıq özünü inandırma kimi görünür. Özünü inandırma şəxsiyyətin sıxışdırılmış etnosun nümayəndəsi kimi şəxsi

fikrində özünü təsdiq etmək cəhdinə imkan verən bir vasitə ola bilər. Bu şəxsin özünü qurban kimi dərk etməsi, qurbanın əksəriyyəti neqativ, düşmənçiliyə qədər çatan qiymətləndirdiyi subyektlər kimi dərk etməsi ilə konfliktə daxil olur.

Münaqişə potensialının formalaşması subetnosların superetnosun dəyərlərini qavraması və onların kiçik qruplarda üzvlərin sosial-psixoloji davranışında sonrakı obyektivləşməsi prosesinin ziddiyyətliliyi ilə daxilən bağlıdır. Etnoseparatçılıq mexanizminin elementləri kimi dəyərlərin müəyyən səviyyəsinin xarakteristikası araşdırılan problemin tədqiqinin daha bir konseptual psixoloji aspektini təşkil edir. Burada nəzərə almaq lazımdır ki, hakim superetnosun siyasətində sosial məqsədlərə çatmaq üçün superetnosun mənafelərinin hazırlanması və həyata keçirilməsinin əsas yol və vasitələri onların subetnoslar tərəfindən tanınması dərəcəsi kimi şərh oluna bilər. Bu məqsədlərin özününkü kimi qavranılması səviyyəsi etnoseparatçılığın mühüm sosial-psixoloji təzahürlərindən biridir.

Məhz bu psixoloji durum mərhələli şəkildə aşağıdakı kimi inkişaf etməyə başlayır:

1. Sosial qrup arasında humanitar ziyalılar tərəfindən etnosun tarixi yaddaşının fəallaşması və bunun üzərində etnik identikliyin aktuallaşması;

2. Hərəkatın institutlaşması zəminində siyasi partiyanın formalaşması;

3. Separatçılığın sosial bazasının genişlədilməsi istiqamətində partiya fəaliyyətinin səfərbər edilməsi;

4. Separatçı tələblərin emosional psixoloji duruma çevrilməsi.

Etnosiyasət konkret və praktiki tədbirlərdən ibarət olan bir konsepsiyaya söykənməlidir. Bu konsepsiyada ölkə ərazisində olan etnik qruplar arasında ictimaihəyatın hər üç sahəsində (inzibati-siyasi, sosial-mədəni və iqtisadi) münasibətləri tənzimləmək zəruridir. İstənilən sivil demokratik ölkənin etnosiyasəti aşağıdakı problemlərin həllinə yönəlməlidir:

- dövlətdə və ya konkret regionda milli azlıqda olan etnik qrupların durumu;

- xaricdə olan həmyerlilərin durumu;

- illeqal miqrasiya (könüllü və könülsüz);
- demoqrafiq durum (praporsionallıq və məskunlaşma sahəsi);
- etnomədəni anklavlar və diasporalar;
- dövlət və yerli strukturlarda etnik məsələ;
- təhsil sistemində etnik məsələ;
- etnik münaqişələrin həlli;
- milli birlik.

Etnosubyektin normativ təsəvvürləri ilə dövlətdə mövcud olan işlərin vəziyyəti arasında fərqlərin nəticəsi "ədalətlidir-ədalətli deyil" terminlərində qeyd olunur. Buna görə də etnosubyektin öz sosial-psixoloji qiymətlərində hansı dəyərlər sistemindən çıxış etməsi vacibdir və onun narazılıq haləti sosial əhəmiyyət mənasında işlərin belə vəziyyətinə hansı qiyməti verməsindən asılıdır.




**Şək.3.2.** Etnoseparatçılığa psixoloji təsir mexanizminin sxemi

Göründüyü kimi, bu mexanizm 4 blok-həlqəni əhatə edir:

1. "Antesedentlər" bloku: əvvəlki sosial və psixoloji şəraitin etnoseparatçılığa təsiri: "biz-onlar" antitezi bazasında etnik fikirdə mənafelərin, tələbatların, dəyərlərin, statusun latent müxalif mövqeyi.

2. "Etnosun psixologiyasında təşəkkül elementləri" bloku: mənafelərin, tələbatların, dəyərlərin, statusun açıq müxalif mövqeyi; verbal formada qarşıdurmaya yönəliş.

3. "Perseptiv münaqişənin sosial-psixoloji prosesləri" bloku: qarşı duran etnosun düşmən surətində qavranılması; etnosun ümumi əhvalında etnoseparatçı meyillərin artmasına yönəliş.

4. “Biz-onlar” şkalası üzrə sosial məsafənin artmasının psixoloji stimulları” bloku: sosial-psixoloji münaqişənin yüksək dərəcədə intensivliyi; etnoseparatçılığın “tənqidi kütləsi”nin sürətlə çoxalması; fiziki formalarda qarşıdurmaya yönəliş.

5. “Etnoseparatçılığa psixoloji təsir mexanizminin işə düşməsi” bloku: etnoseparatçılığa davamlı yönüm əsasında fiziki qarşıdurma əməllərinin durmadan artması; sosial baxımdan gərgin münasibətlərin dönməzliyi.

Sxemin bəzi elementlərini açıqlayarkən, qeyd edək ki, münaqişəli etnoseparatçılıq intensivlik göstəriciləri aşağıdakı tərkib hissələrindən təşkil olunur: ciddi təhlükə; aydın ifadə olunmuş etnosentrizm; etnosubyektlərin bir-birinə yüksək dərəcədə inamsızlığı; həll edilməmiş problemlərin ciddi xarakteri. Yüksək intensivli etnik münaqişələr zamanı ontoloji tələbatlar: təhlükəsizlik, bərabərlik, qəbul edilmək, azadlıq və müstəqillik, hakimiyyyətə olan tələbatlar mənbə olaraq götürülə bilər. Həm də onlar etnoslararası münasibətlər səviyyəsində aşağıdakı ölçülərdə ifadə oluna bilərlər: rəqabətə yönəliş; perseptiv və koqnitiv münaqişə; qeyri-adekvat kommunikasiya və qarşılıqlı təsir; əks arzuolunmaz nəticələrə səbəb olan mübahisənin həlli.

Millətlərarası münasibətlərdə milli fəlakət artıq reallaşmağa başlayır (4.1). Bununla belə barışın əldə olunması üzrə qəti təsirli tədbirlərin görülməsi zamanı dağıntılar və qan tökülməsi ilə bağlı olan etnoseparatçı meyillərin zəifləməsi mümkündür (4.2). Barış psixologiyası barışıq elementlərini özündə ehtiva edərək, son nəticədə etnoseparatçılığı söndürə bilər.

Şəkil 1.3.-də etnoseparatçı münaqişənin genişlənməsi mərhələləri sxematik olaraq təsvir olunmuşdur.




Şək.1.3. Etnoseparatçı münaqişənin genişlənməsi sxemi

1. Verballaşmaya qədərki dövr
2. Verballaşma dövrü
3. Böhran dövrü
4. Böhrandan sonrakı dövr:
4.1. Fəlakət
4.2. İlkin vəziyyətə qayıdış

"**Azərbaycanda separatçiliğin sosial-psixoloji xüsusiyyətləri**" adlanan beşinci fəsildə qloballaşma şəraitində Azərbaycanda separatçılığın təşəkkül və təzahür formaları, Azərbaycanda separatçılığın sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması ilə bağlı aparılan sosial-psixoloji tədqiqat materiallarının nəticələri tədqiq olunur.

2017-cü ildə Azərbaycanın etnik birliklərinin kompakt yaşadığı müxtəlif regionlarında və Bakı şəhərində cəmi 600 respondent arasında Azərbaycanda separatçılığın sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması məqsədi ilə sorğu keçirilmişdir (Bax: Əlavələr).

Mövcud araşdırmaların nəticəsində əldə edilən məlumatlarda sosial-psixoloji amilləri üzə çıxarmaq məqsədi ilə müşahidə sorğu (müsahibə və anket), eksperiment metodlarından istifadə olunmuşdur. Araşdırılan müxtəlif etnik qrupların arasında müəyyən parametrlərlə fərqlərin olub-olmaması məsələsinə aydınlıq gətirilmişdir. Əldə olunan məlumatlar bir çox amillərin təhlili nəticəsi olaraq ortaya çıxmışdır. Burada daxili psixoloji durumu qiymətləndirmək üçün təhlil iki mərhələdə gerçəkləşdirilmişdir:

1. Bütün seçimlərdə qruplararası quruluşlarla strukturlarla bağlı olan daxili amillərin əlaqəsi üzə çıxarılmışdır.
2. Qruplararası strukturlarla və daxili amillərin əlaqəsinə xarici amillərin təsiri müəyyənləşdirilmişdir. Buraya etnik qrupun statusu və məskunlaşmanın kompakt dispers növü aiddir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı məsələlərə aydınlıq gətirilmişdir.

1. Etnik identikliyin müəyyənlik dərəcələri:
2. Etnik qrupların hiss etdikləri ayrı-seçkilik səviyyəsi:
3. Etnik əlamətlərə görə tolerantlıq və intolerantlıq səviyyələri:
4. Etnik birliklərdə ümumi inteqrasiyaya meyillilik səviyyəsi.

Araşdırmada tətbiq olunan metodikanın nəticələrinin göstəriciləri faizlə təqdim olunmuş və fərqlər müqayisəli təhlil metodu əsasında yoxlanılmışdır

Müəyyən olunmuşdur ki, etniklərin etnik identiklik səviyyəsi yüksək, dominant etnik qrup olan türklərin isə etnik identiklik səviyyəsi aşağı olmaqla yanaşı, onların milli identiklik səviyyəsi isə təxminən eyniyyət təşkil edir.

Araşdırmalar nəticəsində separatçılığa şərait yaradan qruplararası münasibətlərdə ayrı-seçkilik etnik identiklik keyfiyyətlərinin əlaqəsi, etnik identikliyin pozitivliyi, etnik əlaqədə fərqliliyin (etnik tolerantlıq) intolerantlığı ilə əlaqəlidir.

Azərbaycan Respublikasının regionda müstəqil demokratik bir dövlət kimi gündən-günə güclənməsi, regionda maraqlı olan qonşu dövlətlərlə hərtərfli münasibətlərin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının, sosial ədalətin inkişafı istiqamətində irəliləyişlər, dövlət tərəfindən aparılan etnosiyasət, regionlarda sosial-iqtisadi inkişafın təmin olunması və başqa tədbirlər, separatçılığın qarşısının alınmasına şərait yaradır. Lakin araşdırmalar bu sahələrə daha çox diqqət yetirilməsinin zəruri olduğunu göstərir.

## ƏSAS NƏTİCƏLƏR

Separatçılıq psixologiyası ilə bağlı məsələləri nəzərdən keçirərkən, bu sosial fenomenin qloballaşma şəraitində təşəkkülü, inkişafı və tənəzzülü ilə bağlı qanunauyğunluqları müəyyənləşdirməyə çalışdıq. Ona təsir edən psixoloji mexanizm və amilləri təhlil etdik, onun sosial-psixoloji hadisə kimi mahiyyətini üzə çıxarmağa səy göstərdik, etnik identiklik, özünüinandırma və separatçılığın mürəkkəb qarşılıqlı münasibətlərini açıqladıq, həmçinin etnoseparatçı şüurun koqnitiv və affektiv komponentlərini işıqlandırdıq.

Əsas nəzəri məsələlərin təhlili, etnoseparatçılıq psixologiyasının olduqca mühüm aspektlərini ortaya çıxarmağa şərait yaratdı. Sosial-psixoloji ziddiyyətlər və onların separatçılıq fenomeninə inikası, separatçılıq kontekstində psixi deprivasiya amili və etnik münaqişələrdə psixoloji akkulturasiya məsələlərinin tədqiqi qarşıya qoyulan məqsəd və vəzifələrin öhdəsindən gəlməyə imkan verdi və

araşdırmaların nəticələri ümumi fərziyyənin doğru olduğunu təsdiq etdi. Tədqiqatın nəticələrini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Separatçılığın sosial-psixoloji səbəblərini, problemin və onun yaranmasına şərait yaradan amillərin psixoloji strukturunu, tip və funsional xarakterini müəyyənləşdirərkən, separatçılığın həm sosial, həm də psixoloji amillərin təsiri altında özünü göstərdiyini, qısqanclıq, ayrıseçkilik, ümidsizlik, inamsızlıq hisslərinin onun yaranmasına təsirini nəzərdən keçirdik.

2. Separatçılıq problemi qloballaşma proseslərinin dinamikasında, cəmiyyətdə yaranan sosial-siyasi, iqtisadi və mədəni dəyişikliklər şəraitində insan psixikasının, kiçik və böyük sosial qrupların kütləvi psixikasının potensial imkanlarını fəallaşdırır, onun arxaik elementlərini gündəmə gətirir, yeni identiklik formalarının yaranmasına, gərgin adaptasiya problemlərinin ortaya çıxmasına səbəb olur, cəmiyyətdə insanları birləşdirən ümumi maraqları və onların üzərində formalaşan ümumi dəyərləri aradan qaldırır.

3. Separatçılıq psixologiyasının təhlili, onun kollektiv mədəniyyət kontekstində böyük sosial qruplar şəklində inkişaf meyillərinin daha fəal olduğunu üzə çıxardı. Çünki kollektiv şüur ənənəvi mədəni stereotiplərə, hisslərə qapılmağa və avtoritar idarəetmə üsullarına daha çox meyillidir.

4. Separatçılıq psixologiyasının güclənməsinə minimum şərait formalaşdıran mədəniyyət növü həm şəxsiyyətin, həm kollektiv şüurun inkişafına zəmin yaradan orta mövqeli tolerant mədəniyyətlərdir. Bu mədəniyyətlər əsasən Şərq və Qərb dəyərlərinin kəsişdiyi bölgələrdə formalaşır.

5. Tədqiqatın nəticələrinə görə belə demək olar ki, separatçının psixoloji durumu onun barışmazlığında, başqasının fikrini daim təkzib etmək səyində, radikallığında, dözümsüzlüyündə, sərbəst düşüncə qabiliyyətindən məhrum olmasında təzahür edir. Bu psixoloji durum kollektiv mədəniyyət tipinə mənsub olan separatçı sosial qruplar arasında kütləvi xarakter alır.

6. Araşdırmalar göstərir ki, cəmiyyətdə istənilən ayrıseçkilik forması sonradan separatçılıq şəklində cəmiyyətin özünə qarşı çevrilir. Cəmiyyətdə yaranan inamsızlıq, ümidsizlik durumu insanlar və sosial qruplar arasında olan ənənəvi birliyin pozulmasına şərait

yaradır. İnsanların bir-birinə və onların vətəndaşı olduqları dövlətə inam və ümidlərinin artırılması istiqamətində müəyyən tədbirlərin görülməsi vacibdir.

7. Müəyyən olunmuşdur ki, Azərbaycanda etniklərin etnik identiklik səviyyəsi yüksək, dominant etnik qrupun etnik identiklik səviyyəsi isə aşağıdır. Dominant etnik qrupun milli və etnik identiklikləri əksəriyyətdə eyniyyət təşkil edir və ya böyük bir qrupunda milli identiklik etnik identikliyi üstələyir. Bəzi hallarda əhalinin bir qrupunda milli və dini identiklik formaları bir-birini əvəz edir. Lakin, Azərbaycanda etnik statusun dominantlığı deyil, milli vətəndaşlıq statusunun dominantlığı əsas olduğu üçün, etnoslararası sosial-mədəni münasibətlər iyerarxik şəkildə deyil, üfiqi şəkildə qurulmuşdur. Bu, həm birgə tarixi-mədəni inkişafın, həm də dövlətin apardığı multikulturalizm siyasətinin nəticəsidir.

8. Separatçılığın formalaşmasında bir-biri ilə üzvi şəkildə bağlı olan həm xarici-sosial, həm də daxili-psixoloji amillər daim müvazinətdə olan dinamik qarşılıqlı əlaqələr şəklində mövcuddurlar. Xarici sosial-iqtisadi gərginlik daxili-psixoloji separatçılıq meyillərini formalaşdırdığı kimi, daxili-psixoloji gərginlik də xarici separatçılıq formalarını müəyyənləşdirir.

9. Separatçılığın formalaşmasında daxili amillərin («super mən – mən», «fərdi mən – mən», «biz - onlar») rolu psixoloji baxımdan araşdırılmışdır. Aparılan sosial-psixoloji araşdırma nəticəsində müəyyən olunmuşdur ki, bir çox insanlar öz şəxsi problemlərinin səbəbini özündə deyil, onu əhatə edən sosial mühitdə axtarmağa meyilli olurlar. Sosial mühitdə formalaşan «biz-onlar» qarşıdurması isə, fərdi neqativ psixoloji durumun istiqamətini özündən «onlar» tərəfə yönəldən sosial mexanizm rolunu oynayır. Nəticədə məlum olur ki, sosial-psixoloji «biz» kontekstində əsasən fərdi öz problemlərinin həllindən uzaqlaşdıran və onun ətalətini artıran psixoloji sığınacaq əldə olunur. Bu qapalı «sığınacaq» özünü yeni sosial inkişaf mərhələsində dərk etməyə maneçilik törədir, sosial-mədəni inteqrasiyanı zəiflədir və ümumiyyətlə, sosial-iqtisadi inkişafa zərər vurur. Digər tərəfdən, bu, sosial-psixoloji durum separatçı qüvvələrin məqsədlərinin həyata keçməsi üçün zəmin

hazırlayır. Özünəinamsızlıq, bədbinlik, tənbəllik kimi psixoloji xüsusiyyətlər separatçı şüurun inkişafına şərait yaradır.

10. Xarici amillərin (sosial-iqtisadi, ərazi, siyasi və mədəni) separatçılığın formalaşmasına təsir mexanizmləri güclüdür. Ümumiyyətlə, həm daxili, həm də xarici amillər separatçı şüurun formalaşmasında bir-birini tamamlayır. Xarici amillərdən olan sosial-iqtisadi durum əksər hallarda separatçılığın daxili elementlərini aktivləşdirir. Xarici amillərdən olan iqtisadiyyat separatçılığın inkişaf istiqamətini müəyyənləşdirir. İqtisadi tənəzzül çox vaxt onun formalaşmasında əsas təsir mexanizmi rolunu oynayır. Buna görə də regionlarda sosial-iqtisadi durumun tənzimlənməsi dövlətin apardığı etnosiyasətin əsas vəzifələrindən biridir.

11. Müasir sosial proseslər milli dövlətlərdə etnik dominantlığın zəifləməsinə və vətəndaşlıq identikliyinin inkişafına zəmin yaradır. Bir tərəfdən ənənəvi birlik formalarının etnik və sosial elementlərə parçalanması, digər tərəfdən isə, onların polietnik birlik forması olan milli dövlətlərdə inteqrasiyası prosesi gedir. Nəticədə, bu proseslər yeni identiklik və adaptasiya problemlərini formalaşdırmaqla şüurlarda «biz-onlar» qarşıdurmasının məzmununa yeni elementlər daxil edir. Bu isə, separatçılıq istiqamətini və onun xarakterini yeni formada müəyyənləşdirir.

12. Separatçılıq ənənəvi inkişaf formalarını mədəniyyət vasitəsilə ötürür. Şüurlarda ənənəvi şəkildə kök salan identiklik formaları, mədəni stereotiplər, adət-ənənələr sosial dinamikadan geri qaldığı üçün, «biz-onlar» qarşıdurması çox vaxt cəmiyyətin öz daxilinə yönəlir. Əlbəttə, bu proses daha çox qapalı, inteqrasiyadan kənar mədəniyyətlərdə daha ağır sosial-psixoloji nəticələrə gətirib çıxarır. Bu, ölkə və ya cəmiyyət daxilində ayrıseçkilik, intolerantlıq hallarını daha da gərginləşdirir. Bu tip cəmiyyətlər öz daxilində separatçılığın bir çox formalarını yaradır və özü-özünün inkarını sürətləndirir.

13. Tolerant və qeyri-diskriminativ mədəniyyət sahələrində dəyişikliklər ağır sosial-psixoloji nəticələrə gətirib çıxarmır. Bu cəmiyyətlərdə sosial-iqtisadi inteqrasiya prosesləri bir çox mənfi stereotiplərin tədricən aradan qalxmasına və mədəni inteqrasiyanın inkişafına zəmin yaradır. Bu mədəniyyətdə olan insanların yeni

sosial dəyişiklik şəraitinə adaptasiyası ilə ənənəvi identiklik formaları arasında olan sosial məsafə özünüməxsusluğu təmin edən inteqrasiyaya bərabərdir. Bu proses separatçılığın aradan qaldırılmasının ən mühüm yollarından biridir.

14. Sosial, təbii və fərdi fərqliliklər diskriminativ separatçılıq şüurunun xarakterini müəyyənləşdirir. Bunlar separatçılığın daxili amillərinin mədəniyyət, təlim-tərbiyə çərçivəsində formalaşması nəticəsi kimi ortaya çıxırlar. Buna görə də onların hər bir mədəniyyətdə fərqli təzahür formaları vardır və onların formaları müxtəlif mədəniyyətlərin xarakterinə görə müəyyənləşir.

15. Separatçılığın aradan qaldırılmasının əsas yolları, cəmiyyətdə bütün insan hüquq və azadlıqlarının təmin olunması, demokratiyanın, vətəndaş cəmiyyətinin hərtərəfli inkişafı, sosiomədəni inteqrasiyanın təmin olunmasına, insanları birləşdirən ümumi dəyərlərin, mənəvi mədəniyyətin təbliğinə bağlıdır.

16. Separatçını səciyyələndirən psixoloji durum bunlardır: barışmazlıq, dözümsüzlük, fanatizm, aqressivlik, radikallıq, itaətsizlik, emosionallıq.

17. Araşdırmalar prosesində separatçılığa şərait yaradan qruplararası münasibətlərdə ayrıseçkiliklə, etnik identiklik keyfiyyətlərinin əlaqəsini göstərən çoxölçülü reqressiv təhlil metodlarının nəticələri göstərilmişdir. Etnik identikliyin pozitivliyi, etnik əlaqədə fərqliliyin (etnik tolerantlıq) intolerantlığı ilə əlaqəlidir. Müxtəlif mədəniyyətlərin kəsişdiyi regionda etnik qrup nümayəndələrinin qruplararası münasibətlərində pozitiv və ya neqativ halların ortaya çıxmasına valentlik, etnik identikliyin qeyri-müəyyənliyi, ayrıseçkilik, dindarlıq səviyyəsi təsir göstərir.

18. Qısqanclıq, ümidsizlik, inamsızlıq kimi hisslər ilə müşayiət olunan daxili psixoloji separatçılıq meyilləri fərdin ətraf mühitdən təcrid olunmasına və özünəqapanmasına şərait yaradır. Beləliklə, fərd daxili psixoloji gərginliyi kompensasiya etmək üçün, öz şüuraltı aləminə və mənsub olduğu kiçik sosial qrupa sığınır. Nəticədə, cəmiyyətdə aqressivlik, dözümsüzlük, ayrıseçkilik ilə müşayiət olunan «biz-onlar» psixoloji qarşıdurması aktuallaşır.

19. Cəmiyyətdə hər hansı bir etnik qrupa qarşı olan sosial-iqtisadi ayrıseçkilik, sosial-mədəni dözümsüzlük, daxili psixoloji

gərginliyə əsaslanan xarici sosial separatçılıq meyillərinin formalaşmasına təkan verir. Həm daxili, həm də xarici separatçılıq meyilləri öz vəhdətini kollektiv şüuraltı prinsiplər və emosional kütlə psixologiyası ilə müşayiət olunan milli və ya dini-ideoloji təşkilatlanma səviyyəsində tapır. Bu durum, separatçılığın sosial-psixoloji baxımdan ən gərgin və idarəolunmaz mərhələsidir. Məhz, bu mərhələdə kütlə kor-koranə separatçı liderlərin və başqa dövlətlərin maraqlarının ifadəçisinə çevrilir.

20. Separatçılğın sosial-psixoloji elementləri irrasional mənşəlidir. Onlar şüuraltı təbəqənin arxetiplərindən qaynaqlanan emosional-simvolik təzahür formalarıdır. Ona görə də bu şüur formasının kənardan idarə olunması mümkün deyildir. O, yanlız separatçı qrupun daxilində şüuraltı arxetipləri təmsil edən separatçı liderlər tərəfindən idarə oluna bilər.

21. Azərbaycan dilinin ümummilli dövlət dili səviyyəsinə yüksəlməsi və Azərbaycan dövlətinin varlığı mövcud ərazidə yaşayan əhalinin birgə sosial-mədəni, siyasi-tarixi inkişafının müasir dövrə uyğun məntiqi nəticəsi kimi ortaya çıxmışdır. Buna görə də, milli dövlətçilik və milli dil anlayışı hər hansı bir etnik qrupun dominantlığı kimi deyil, mövcud ərazidə yaşayan bütün insanların birgə tarixi nailiyyəti və gələcək səadəti kimi dəyərləndirilməlidir.

22. Azərbaycanda dominant etnik qrup anlayışı yoxdur. Dövlət vətəndaşlıq (azərbaycanlılıq) ideyası bütün etnik identiklik formalarını özündə ehtiva edir. Bu isə, ümummilli şüurun formalaşmasına və separatçılıq meyillərinin aradan qaldırılmasına şərait yaradır.

23. Hər bir dövlət öz ərazisində separatçılığa yol verməmək üçün, birinci növbədə ölkə əhalisinin ümumi maraqlarına və onları birləşdirən ümumi dəyərlərə daha çox üstünlük verməli, ayrıseçkilik, intolerantlıq hallarına şərait yaratmamalı, regionların sosial-iqtisadi inkişafını, vətəndaşların hüquq və azadlıqlarını təmin etməlidir.

24. Separatçının psixoloji strukturunu formalaşdıran sosial-mədəni mühitdir. Müxtəlif etnik və dini qrupların yaşadığı dünya dövlətlərində hər bir fərdin həm sosial, həm də etnik identiklikləri mövcuddur. Bunlar həm dövlətin sosial-mədəni siyasəti ilə aşılanan sosial dəyərlər ilə, həm də tarixi-mədəni baxımdan şüurlarda

formalaşan stereotiplər vasitəsilə yaranır. Ona görə də, dövlətin apardığı milli siyasət, sosial-mədəni islahatlar, etnik-mədəni mühitin dəyərləri ilə toqquşmamalı, əksinə, onların sosial-mədəni islahatlar çərçivəsində inkişafına zəmin hazırlamalıdır. Əks təqdirdə, cəmiyyətdə sosial və etnik dəyərlər arasında «biz-onlar» qarşıdurmasına şərait yarana bilər. Çünki bu mühitdə sosiallaşan fərdin etnik identikliyi ilə sosial identikliyi arasında tarazlıq pozulur.

25. Hər bir dövlət öz vətəndaşının sosiallaşmasını təmin etməli və onun cəmiyyətdən təcrid olunmasına şərait yaratmamalıdır. Çünki desosiallaşma prosesi cəmiyyətdə cinayətkarlığın artmasına və nəticədə separatçılıq zəminində sosial hadisələrin formalaşmasına imkan yarada bilər. Unutmaq olmaz ki, cəmiyyətdən təcrid olunanların separatçı qruplar daxilində özünə sosiopsixoloji sığınacaq tapmaları mümkündür. Deməli, cəmiyyətdə desosiallaşma prosesinin dərinləşməsi problemlərin həllinə deyil, daha da mürəkkəbləşməsinə şərait yaradır. Bunun üçün regionlarda sosial-iqtisadi problemlərin aradan qaldırılması, insan hüquqlarının qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

26. Separatçılıq çox vaxt fərdin öz psixoloji durumundan qaynaqlanır. Fərdi əhatə edən sosial mühit ilə onun «mən» başlanğıcı arasında, həmçinin onun «mən» başlanğıcı ilə «ali mən» başlanğıcı arasında mövcud ziddiyyətlər aradan qaldırılmalıdır. Fərdin mənəvi və şəxsi dəyərləri ilə sosial dəyərlər arasında ziddiyyətin dərinləşdiyi məqamlarda ortaya çıxan özgələşmə problemi, sonradan aqressiya halına keçən psixoloji gərginliyi, nevroz hallarını artırır. Cəmiyyətdə artıq qloballaşma prosesləri ilə bağlı yaranmış belə sosial-psixoloji durumlardan, yəni aqressiv kütlədən öz mənafeləri üçün istifadə etməyə çalışan separatçı qüvvələr ortaya çıxa bilər. Bu kimi halların qarşısının alınması üçün dövlət vətəndaşlarının mənəvi-psixoloji təhküsizliyini nəzərə almalı və bunun üçün bir sıra tədbirlər həyata keçirməlidir.

27. İdentiklik hissi keçid şəraitində olan mədəni mühitdə ənənəvi identikliyin tədricən yenilənməsi ilə miqrasiya mühitində assimilyasiya prosesi ilə üzləşir. Bu prosesdən kənarda qalan fərdlərin və cəmiyyətlərin sosial inkişafı ləngiyir. Polietnik cəmiyyətdə titul etnosun etnik azlıqla olan etnoslarla

münasibətlərində dözümsüzlük, şovinist yanaşma, rəqabət durumu separatçılığa, dözümlülük, əlaqələndirci yanaşma, əməkdaşlıq durumu isə, sosial inteqrasiyaya, inkişafa şərait yaradır. Buna görə də, hər bir dövlətin öz milli təhsil strategiyasının olması vacibdir. Çünki 6-12 yaş dövründə formalaşan identiklik cəmiyyət daxilində separatçılığa deyil, sosial inteqrasiyaya şərait yaratmalıdır. Etnik identiklik sosial identikliyin tərkib hissəsi olmalı və onlar bir-birindən təcrid edilməməlidir. Fərdin sosial davranışını müəyyənləşdirən etnomədəni motivasiyalar onun vətəndaşlıq statusu ilə vəhdət təşkil etməlidir.

28. Etnik qruplarda etnosentrizm əhval-ruhiyyəsinin artması tərəflər arasında düşmənçilik hisslərinin yaranmasına şərait yaradan stereotipləri formalaşdırır və nəticədə qərarlaşmış münasibətlər etnoseparatçılıq mərhələsinə qədəm qoyur. Burada nəzərə alınmalıdır ki, dövlətin apardığı yanlış milli, sosial-iqtisadi siyasət nəticəsində də cəmiyyətdə müxtəlif sosial qruplar, sosial zümrələr arasında separatçılıq meyilləri formalaşa bilər. Yaxud, mədəni və mənəvi nigilizm ictimai həyatda bir çox problemlərin yaranmasına şərait yaradır. Milli-etnik şüuru təşkil edən elementlərin tədricən aradan qalxması mill-etnik şüura destruktiv təsir göstərə bilər. Bu, fərdi deyil, hər bir milli dövlətin təhlükəsizliyi ilə bağlı olan ictimai bir problemdir. Bu baxımdan, dövlətin milli təhlükəsizlik proqramında milli-etnik şüur mexanizminin qorunub saxlanılması əsas strateji məsələlərdən biri olmalıdır. Əks təqdirdə, qloballaşma prosesinin sosial-psixoloji təsirləri milli-etnik şüur mexanizminin aradan qalxmasına səbəb ola bilər. Lakin, bu mexanizmin qorunub saxlanılması həm dünyaya inteqrasiya olunmağa, həm də milli inkişafa zəmin yaradır.

**Dissertasiya işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Psixi deprivasiya etnoseperatizm kontekstində // – Bakı: Psixologiya, – 2003. № 4, – s.99-102.

2. The sosiophychological faktoros in the context of glolobalization // – Bakı: Bakı Universiteti xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2007. № 7, – s. 183-191.

3. Bəzi sosial psixoloji ziddiyyətlər və etnoseperatizm // – Bakı: Psixologiya, – 2007. № 2, – s. 92-99.

4. Психологические особенности агрессивного поведения подростков // – Bakı: Bakı Universiteti xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2008. № 2, – s. 166-180.

5. Etnosiyasət-etnoseparatizmin tənzimləmə prinsipləri //– Bakı: BDU-nun Elmi məcmuəsi, – 2009. № 12, – s. 233-243.

6. Etnoseparatist şüur və qloballaşmanın ona təsiri // – Bakı: Psixologiya, – 2009. № 3, – s. 91-98.

7. Этносепаратизм как социально-психологическое явление // – Москва: Современные гуманитарные исследования, ИССМ-1012-9103, – 2009. № 2 (27).

8. Соотношение этносепаратизма и этнокультуры // – Москва: Современные гуманитарные исследования, ИССМ-1012-9103, – 2009. № 3 (28), – s. 273-277.

9. Социально-психологические особенности сепаратизма в условиях глобализации // – Тольятти: Вектор наук Тольяттинского Государственного Университета. Серия Педагогика, психология, – 2011. № 1 – 4, – s. 20-24.

10. Деструктивные механизмы сепаратизма // – Санкт-Петербург: Вестник Санкт-Петербургского университета, серия 12, – 2011, Вып. 2, – s. 238-243.

11. К проблеме соотношения глобализации и цивилизации // Феномен цивилизации, сущность, типы, динамика. Материалы международной научно-практической конференции, – Пенза-Баку , – 15-16 марта, – 2011, – s. 90-93.

12. Проблема этнического сепаратизма в социальной психологии // – Тольятти: Вектор наук Тольяттинского Государственного Университета. Серия Педагогика, психология, İSSN 2221-5662, – 2011. № 3 (6), – s.41-43.

13. Qloballaşma sosial siyasi inkişaf kontekstində // – Bakı: ARTN BSU Elmi əsərlər ictimai-siyasi elmlər seriyası, – 2011. № 2, – s. 64-69.

14. О роли национальной идентичности в формировании этносепаратизма // – Тольятти: Вектор наук Тольяттинского Государственного Университета, – 2013. № 1 (12), – s. 35-37.

15. Sosial and Psychological Foundations of Ethnic Separatism in the Southern Causcasus // – International Journal of Life Sciences ISSN2091-0525, – 2015. № 9(6), – s.104-108.
16. Антропологенные установки в психологических основах этнического сепаратизма в условиях модернизации // – Киев: Международный науковый форум. Социология, Психология, педагогика, менеджмет, – 2015. № 18, – s.82-89.
17. Социально-психологические основания формирования этнического сепаратизма в различных этнических группах // – Азимут научных исследований, – 2016. Том 5 № 2(15), – s. 190-194.
18. Сепаратизм как крайнее проявление этнической идентичности // – Одесса: Politicus науковый журнал, – 2016. Вып. 1, – s.186-194.
19. Толерантность и мультикультурализм как существенные факторы современного общественного развития в политических государствах // Azərbaycan Respublikası TN, BDU Mədəni müxtəliflik. Dünya və Azərbaycan Beynalxalq elmi praktik konfrans, – 2016, – 29 aprel, – s. 292-294.
20. Etnoseperatizmin sosial-psixoloji problem kimi // – Bakı: ARTN ADU Elmi xəbərlər, İSSN 2518-752X, – 2017. № 4, – s.83-90.
21. Müasir dövrdə mədəni və psixoloji identiklik // – Bakı: BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, – 2017, – 27 iyul (temmuz), – s.65-74.
22. Separatizmin psixoloji mahiyyəti və tədqiqi istiqamətləri // – Bakı: AMEA Fəlsəfə İnstitutu Elmi xəbərlər Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №1(28), – s.104-110.
23. Tolerantlıq seviyyesinin etnik identiklik əlamətlərinə görə tədqiqi // ARTN ARTİ Elmi Əsərlər , 2017, cild 84, № 6, s. 182-191
24. Qloballaşma və onun sosial-psixoloji təhlili // – Bakı: ARTN ARTİ Elmi Əsərlər, – 2017. cild 84, № 5, – s.117-123.
25. Ethnic identity and the seperatism problem in the context of qlobalization // – Loc ANGLES: MESTER General İssue İİİ University of California, İSSUE 3İSSN 0160-2764, – 2017. Vol. 46, – s.113-128.

26. Separatizm probleminin psixoloji mahiyyəti və tədqiqi məsələləri // – Bakı: Bakı Avrasiya Universiteti SİVİLİZASİYA. Elmi nəzəri jurnal, – 2017. cild № 6, – s.19-25.

27. Azərbaycanda separatçılığın sosial-psixoloji xüsusiyyətləri // – Bakı: Bakı Universitetinin xəbərləri, – 2017. № 1, – s.89-119.

28. Separatism as an extreme manifestation of ethnic identity // - USA: Milton Studies Jurnal of the Liberary Theory, E-İSSN.2330-796X, – 2018. Vol. 61 İssue 1, – s.117-131.

29. The study of identity and the problems of modern seperatism in the context of qlobalization // – Mexico: Revicta Dilemas Contemporaneos. Educacion. Politica y Valores. Yea VII, special Edition ISNN 2007-7890, – 2019. Octubre, – s. 284-304.

30. The phenomenon of separatism and its psychological mechanism as an extreme manifestaion of ethnic identity // Journal of critical Reviews. *JCR*. ISSN 2394-4125, – 2020. Vol. 7, Issue 6, December, – s.1172-1176.

**Bayramov Imdad Mustafa**

## SOCIAL - PSYCHOLOGICAL PROBLEMS OF SEPARATISM IN CONDITIONS GLOBAZATION

**Resume**

As a result of research we have established, that in development of separatism alongside with external social and economic, political and cultural factors an important role internal social - psychological factors, as play feelings of jealousy, discrimination, hopelessness, disbelief. Internal factors become the reason in subconsciousness of the certain social groups desintegration and the destructive phenomena that are frequently shown during transformation in the undeveloped traditional societies in the form of collective separatism. The further mechanism of transformation of an ethnic stereotype in a bias, and then its fastening in political and ideological doctrines - a problem not only social psychology, and all social studies. The social - psychological analysis of formation of ethnic stereotypes can bring in the certain contribution to struggle against such negative phenomena, as separatism.

We have noticed, that with development welfare globazation in some societies there are social - psychological problems connected with identification, adaptation. These problems in societies of collective consciousness are shown in the mass form of emotional mood, as against a society of individual consciousness where these factors are personal problems of each individual. Therefore collective consciousness of east societies frequently under influence of cultural stereotypes, emotional are exposed to collective authoritative forms of separatism that is frequently shown in aggressive, intoleration and radical forms of terrorism, extremism and religious fundamentalism more.

Dissertasiyanın müdafiəsi 25 iyun 2021-ci il tarixində saat $12^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BED 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ - 1073/1, Bakı şəhəri Yasamal rayonu Z. Xəlilov küç 23 BDU 2-ci korpus otaq 901

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.